www.musavat.com
YENİ MÜSAVAT
Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 19 mart 2019-cu il Çərşənbə axşamı № 62 (7232) Qiyməti 60 qəpik

Xəbər

## Gömrükçülər sərhəddə 306 kiloqramdan artıq heroin tutdular

yazısı səh.12-də

Gündəm

### Ermənilərdən Qarabağla bağlı sərsəm iddia



Qarabağ separatçıları işğal altındakı Azərbaycan ərazilərini "Rusiyanın mandatı altına verməyə" çağırır

yazısı səh.11-də

### Azərbaycan tarixinin ən böyük siyasi əfvi

yazısı səh.4-də

### Səhiyyə Nazirliyinə 6,8 milyon manat ayrıldı -prezident sərəncamı

yazısı səh.2-də

### Mərkəzi Bank yenilənmiş 10 manatlıq pul nişanını dövriyyəyə buraxır

yazısı səh.10-da

### "Ona komanda verilə bilər ki, sən bu cür danışmalısan" - Fəzail Ağamalı

yazısı səh.6-da

### Cahangir Hacıyevin 4.7 milyardlıq cinayət işi yekunlaşır

yazısı səh.10-da

### İranla Amerika arasında "savaş meydanı" - Bağdad

yazısı səh.9-da

### Quraqlığın aqrar istehsala yaratdığı problemlər

yazısı səh.13-də

### "Boeing" təyyarələrinə etimad azala bilər

yazısı səh.14-də

### Bayılın köçürülməsi bayramdan sonraya qaldı

yazısı səh.15-də

### Xudatın Bostançı kəndinə ayrılan 800 min manatı kim yeyib - reportaj

yazısı səh.15-də

# KRIM VƏ QARABAĞ REALLIQLARI - BAKI ÜÇÜN YENİ ŞANS

Avropa Birliyindən işğalçı siyasətlə bağlı sərt mövqe gəldi; Rusiyanın işğal ortağı, Krımı Rusiya ərazisi sayan Ermənistan da bu "lütfə" layiq görülə bilər, çünki...



yazısı səh.8-də

## Böyük kriptovalyuta fırıldağı - Azərbaycanda 4 min nəfərə 700 min dollar "atıb"lar

"Bu adamların adını "BeardyCoin" qoyduqları, kriptovalyuta kimi təqdim etdikləri beynəlxalq birjalarda tanınmır" - ekspert

yazısı səh.12-də



*Qabil Hüseynli:*

**"Növbədənkənar parlament seçkilərini zəruri edən səbəblər var"**

yazısı səh.5-də



*Aparıcı İradə İsaq:*

**"Yalnız şou deyil, ciddi verilişlərin də dəyişməyə ehtiyacı var"**

yazısı səh.2-də



*Səidə Qocamanlı:*

**"Qarşıdakı bayramlar ərəfəsində də əfv sərəncamı gözləmək olar"**

yazısı səh.4-də

YENİ MÜSAVAT
N 62 (7232) 19 mart 2019

# Prezident Novruz bayramı münasibətilə xalqı təbrik etdi



Prezident İlham Əliyev Novruz bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib. Təbrikdə deyilir:

- Hörmətli həmvətənlər!

Sizi Novruz bayramı münasibətilə ürəkdən təbrik edir, bu əziz bayram günlərində hamınıza bahar əhval-ruhiyyəsi, cansağlığı və səadət arzulayıram.

Qədim dövrlərdən bəri mənəvi həyatımızın ən dərin qatlarına nüfuz etmiş və milli-mədəni dəyərlərimizin təşəkkülündə müstəsna yer tutmuş Novruz bayramı əcdadımızın indiki nəsillərə misilsiz yadigarıdır. Təbiətlə insanın vəhdətinə dair təsəvvürləri yaşadan rəngarəng Novruz mərasimlərində xalqımızın dolğun həyat fəlsəfəsi və zəngin düşüncə dünyası parlaq təcəssümünü tapmışdır.

Azərbaycan torpağında Novruz bayramı daim yad təsirlərdən uzaq tutulmuş və heç bir qüvvəyə onu insanlarımızın qəlbindən çıxarmaq imkanı verilməmişdir. Biz onun böyük mənəvi gücü sayəsində keçmişimizin mürəkkəb dövrlərində belə nikbinliyimizi və gələcəyə inamımızı qoruyub saxlamağı bacarmışıq. Yaz bayramının bu gün əsl ümumxalq bayramı mahiyyəti qazanması dövlət müstəqilliyimizin nailiyyətlərindəndir.

Baharın yurdumuza hər gəlişi əsrlərin yaddaşında iz qoymuş mərasimlərimizə uyğun, yüksək təntənə ilə qeyd olunur. Qloballaşma dalğasının geniş vüsət aldığı və ənənəvi dəyərlərin sürəkli dəyişikliklərə məruz qaldığı bir zamanda Novruz bayramı tarixi-mədəni irsə bağlılığımızın ifadəsinə çevrilmişdir. Özündə insanlığa xas ali dəyərləri cəmləşdirmiş bu bayramın UNESCO tərəfindən ümumbəşəri irsin şah əsərləri sırasına daxil edilməsi hər birimiz üçün iftixar mənbəyidir.

Dayanıqlı inkişaf yolunda ciddi uğurlara nail olmuş Azərbaycanın islahatların növbəti mərhələsinə qədəm qoyması yaz fəslinin yeniləşdirici ovqatı ilə həmahəng səsləşərək qurub-yaratmaq əzmimizi artırır. Həyatımızın ayrı-ayrı sahələrindəki davamlı müasirləşmə meyilləri ilə vahid axarda gerçəkləşdirilən müxtəlif layihələr ölkə vətəndaşlarının rifahının daha da yaxşılaşdırılmasına yönəlmişdir. Qoy bu bayram hər evə xoş ovqat gətirsin və hər ocağa bol sevinc, ruzi-bərəkət bəxş eləsin.

**Novruz bayramınız mübarək olsun!**

## Səhiyyə Nazirliyinə 6,8 milyon manat ayrıldı

**Prezident İlham Əliyev "Maştağa qəsəbəsində 7 nömrəli Birləşmiş Şəhər Xəstəxanasının ərazisində yeni korpusun tikintisi ilə bağlı əlavə tədbirlər haqqında" sərəncam imzalayıb.**

AzərTAc xəbər verir ki, sərəncamla Maştağa qəsəbəsində 7 nömrəli Birləşmiş Şəhər Xəstəxanasının ərazisində yeni korpusun tikintisinin başa çatdırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.19.12-ci yarımbəndində göstərilən vəsaitin 6 807 400 (altı milyon səkkiz yüz yeddi min dörd yüz) manatı Səhiyyə Nazirliyinə ayrılıb.

Maliyyə Nazirliyinə bu sərəncamda göstərilən məbləğdə maliyyələşməni təmin etmək, Nazirlər Kabinetinə bu sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılıb.

## "Dövlət və bələdiyyə ümumi təhsil müəssisələrində təhsil ödənişsiz olacaq" - Təhsil Nazirliyi

**"Dövlət pulsuz icbari ümumi orta təhsil almaq hüququna təminat verdiyindən publik hüquqi şəxs kimi yaradılmış ümumi təhsil müəssisələrində ümumi təhsil ödənişsiz əsaslarla, yəni dövlət hesabına həyata keçiriləcək".**

Bu barədə ONA-nın "Ümumi təhsil haqqında" qanun layihəsinin 12-ci maddəsi ilə bağlı sorğusuna Təhsil Nazirliyindən cavab olaraq bildirilib.

Qeyd olunub ki, Azərbaycan Konstitusiyasının 42-ci maddəsinə əsasən, dövlət pulsuz icbari ümumi orta təhsil almaq hüququna təminat verdiyindən publik hüquqi şəxs kimi yaradılmış ümumi təhsil müəssisələrində ümumi təhsil ödənişsiz əsaslarla, yəni dövlət hesabına həyata keçiriləcək.

Bildirilib ki, publik hüquqi şəxslərin əmlakının formalaşdığı mənbələr "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilir. Müəssisənin nizamnamə fondu, təsisçi tərəfindən müəssisəyə verilən əmlak və dövlət büdcəsindən ayrılan vəsaitlər həmin mənbələrə aid edilir.

Qeyd edək ki, Milli Məclisin Elm və təhsil komitəsi tərəfindən yeni hazırlanan "Ümumi təhsil haqqında" qanun layihəsinin 12-ci maddəsinin (Ümumi təhsil müəssisəsi) 1-ci bəndində qeyd edilib ki, dövlət və bələdiyyə tərəfindən yaradılan ümumi təhsil müəssisəsi publik hüquqi şəxsdir. İddia edilirdi ki, publik hüquqi şəxsə çevrilən dövlət və bələdiyyə tərəfindən yaradılan ümumi təhsil müəssisələrində təhsil ödənişli əsaslarla olacaq.


## Abunə daha sərfəlidir - "Yeni Müsavat" abunə kampaniyasını davam etdirir




"Yeni Müsavat" qəzeti oxucularına bəyan edir ki, abunə yazılmaqla qəzeti daha sərfəli qiymətlərlə əldə edə bilərlər.

Köşklərdən alınan qəzetin bir nüsxəsi 60 qəpikdir. Abunə ilə qəzetin bir nüsxəsi isə sizə daha ucuz - **48 qəpiyə** başa gələcək.

**Aylıq abunə - 12 AZN**
**3 aylıq - 36 AZN**
**6 aylıq - 72 AZN**

Abunə yazılmaq üçün yaşadığınız ərazidə istənilən poçt şöbəsinə müraciət edə bilərsiniz.

Eyni zamanda Poçt Daşıma Mərkəzinin baş ofisi ilə: **(012) 598-49-55** nömrəsi ilə əlaqə saxlaya bilərsiniz.

Bundan başqa "Qaya" Mətbuat Yayımı ilə də abunə yazıla bilərsiniz.

**Əlaqə üçün telefon: 012-565-67-13, 012-564-48-96**


## «Bakcell» gənc developerlər üçün məzun gecəsi keçirib "AppLab" Akselerasiya Proqramina ərizə qəbulu başlayıb



**Azərbaycanın ilk mobil operatoru və ən sürətli mobil internet provayderi «Bakcell» şirkəti AppLab proqramının növbəti məzunlarını elan edib.**

**2018-2019-ci illər ərzində "AppLab"da iştirak etmiş layihələrin uğurlarını qeyd etmək üçün təşkil edilmiş tədbirdə "Run2Help", "Buket.az", "Madebyaz" və "Balta" layihələrinin müəllifləri ideyaların hazır və bazarda tələb olunan məhsullara çevrilməsində "AppLab"ın mühüm rolu haqqında danışıblar. Gənc developerlərə «Bakcell» şirkətindən xüsusi sertifikatlar təqdim olunub.**

**"Biz görürük ki, Azərbaycanın gəncləri çox böyük bir potensiala malikdirlər. Mən əminəm ki, bu gənclərin ideyaları tək yerli bazar deyil, hətta beynəlxalq səviyyədə belə rəqabət apara biləcək məhsul və xidmətlərə çevrilə bilər. «Bakcell» fəxr edir ki, ölkənin ən innovativ məkanlarından biri olan "AppLab" Mərkəzindəki şəraitdən yararlanan komandaların yaratdığı mobil tətbiqetmələr və məhsullar müxtəlif platformalar üzərindən yüklənir və artıq istehlakçılar tərəfindən aktiv şəkildə istifadə olunur. Bu, bizim fəaliyyətimizin effektiv olmasının bariz nümunəsidir və biz "AppLab" iştirakçıları arasında bu qədər uğurlu layihələrin olması ilə qürur duyuruq", deyə "«Bakcell»"in baş icraçı direktoru Nikolai Beckers bildirib.**

**Qeyd edək ki, «Bakcell» ölkədə startapların inkişafına yönəlmiş layihələrinin həyata keçirilməsini dəstəkləyən ilk şirkətlərdən biri olub. "AppLab" proqramının fəaliyyətə başladığı 2014-cü ildən bəri müxtəlif avadanlıq və proqram təminatlarının tərtibi ilə məşğul olan yerli developerlər öz ideyalarını həyata keçirmək üçün "«Bakcell»"dən dəstək alırlar. "AppLab" layihəsinin iştirakçıları şirkətin "AppLab" Mərkəzində təqdim olunan pulsuz İnternet, masa və təlim otaqları ilə yanaşı üzərində işlədikləri proqram təminatı və cihazların inkişaf etdirilməsi və sınaqlardan keçirilməsi üçün tələb olunan ən son avadanlıqlardan yararlanmaq imkanına malikdirlər.**

**Ötən ilin sonunda İNNOLAND İnkubasiya və Akselerasiya Mərkəzi ilə imzalanmış müqavilə çərçivəsində «Bakcell» ilə İNNOLAND startaplar üçün inkubasiya proqramını birlikdə həyata keçirirlər. Buna görə də "AppLab" artıq Akselerasiya Mərkəzi kimi fəaliyyət göstərəcək.**

**Qeyd edək ki, AppLab Akselerasiya Proqramına ərizə qəbulu açıq elan edilib. Daha öncə "AppLab"da inkubasiya prosesini uğurla başa çatdırmış "Run2Help" layihəsi isə artıq "AppLab" Akselerasiya Mərkəzinə qəbul olunub.**

**İnnovasiyalar sahəsində özünü doğrultmuş lider olan «Bakcell» şirkəti yerli startapların inkişafı, təhsil, elm və texnologiya sahəsində həyata keçirilən layihələri dəstəkləməyə davam edəcək.**

## "Yalnız şou deyil, ciddi verilişlərin də dəyişməyə ehtiyacı var" - İradə İsaq

### Tanınmış teleaparıcı "Telejurnalist məktəbi" açıb

**Tanınmış teleaparıcı İradə İsaq yeni layihəsini təqdim edib. O, "Telejurnalist məktəbi" açıb. Jurnalist bildirib ki, dərslər Avropa, Rusiya və Türkiyə televiziya məktəblərinin tədris bazası əsasında aparılır. Burada yerli televiziya ənənələri ilə yanaşı, müasir tv modeli öyrədilir, tələbələr aparıcılıq sənəti ilə yanaşı, reportyor, redaktor, montajçı kimi peşələrə də yiyələnirlər.**



Musavat.com-a açıqlama verən jurnalist bildirib ki, bu gün efirlərdə verilişlərin bir çoxuna təəssüflənmədən baxmaq mümkün deyil: "Ekranı başqa ölkələrin kanallarına çevirəndə bu fərq kəskin görünür. Söhbət parıldayan studiyalardan getmir. Verilişlərin keyfiyyəti ürəkaçan deyil. Yalnız şou deyil, elə ciddi verilişlərin də islahata, dəyişməyə ehtiyacı var. Bu onu göstərir ki, yeni kadrlar yetişdirilməlidir. Bu gün kimsə bu işlə məşğul olmalıdır, yeni telejurnalistlər yetişdirilməlidir. Televiziya əslində istehsalat prosesi ilə məşğul təşkilatdır, məktəb deyil. Burada öyrətməyə, dərs keçməyə vaxt yoxdur. Onlara hazır kadrlar lazımdır. Bu günə qədər olan tele təcrübəm məndə bu zərurəti imkana çevirmək arzusu yaratdı. Qeyd edim ki, məktəbimizə maraq böyükdür".

İradə İsaqın sözlərinə görə, məktəbin bir özəlliyi də ondadır ki, bura hər kəs qəbul edilmir: "Yaş həddi 15-33 arasındadır, ali təhsilli olanlara üstünlük verilir. Amma çox istedadlı orta və natamam təhsilli insanlar üçün də qapılar açıqdır. Sadəcə, onlar xüsusi baxışdan sonra məktəbə qəbul edilir".

Qeydiyyatdan keçmək istəyənlər 055-903-30-31 nömrəsi ilə əlaqə saxlaya bilər.

## Saakaşvili "Vahid Milli Hərəkat" Partiyasının sədrliyindən gedir



**"Gürcüstanın "Vahid Milli Hərəkat" Partiyasının tərkibi dəyişməlidir". ONA xəbər verir ki, bu barədə Gürcüstanın sabiq prezidenti Mixail Saakaşvili facebook səhifəsində paylaşdığı videoda bildirib.**

Onun sözlərinə görə, ölkədə keçirilən son prezident seçkilərində birləşmiş müxalifətin namizədi Qriqol Vaşadze potensialını yaxşı nümayiş etdirib.

Saakaşvili vurğulayıb ki, "Vahid Milli Hərəkat" Partiyası ümumi səsvermə nəticəsində yeni lider seçməlidir. Çünki ötən il keçirilən prezident seçkiləri Gürcüstanda böyük dəyişikliyin əsasını qoyub. "Partiyada yeni insanlara və idarəçiliyin yeni prinsiplərə əsasında formalaşdırılmasına ehtiyac var. İvanişvili məni ölkəyə buraxmır, bizim bəzi liderlər həbsdədir, bu yaxınlarda Kirkitadzeni saxlayıblar. Bu, təbii ki, təşkilatın fəaliyyətini qəlizləşdirir. Bunun öhdəsindən gəlmək üçün biz daima çevik olmalıyıq. Bu vəziyyətdə "Vahid Milli Hərəkat"ın sədrini seçmək vacibdir", - deyə Saakaşvili qeyd edib.

O, Qriqol Vaşadzenin namizədliyini dəstəklədiyini də sözlərinə əlavə edib.

**İki ay öncə bu gün(lər) cəmiyyətin gözü müxalifətdə idi. Milli Şura “Məhsul” stadionunda mitinq təyin etmişdi. Mehman Hüseynovun adı ətrafında başladılan və “Vaşinqton Post” qəzetinin manşetinə, Avropanın siyasi təşkilatlarının tribunalarına qədər gedib çıxan təbliğat kampaniyası müxalifətimizin çöxrəyinə yağ sürtməkdə idi.**



**Azər AYXAN**
**“Yeni Müsavat” qəzeti baş redaktorunun 1-ci müavini**

# Əfvə düşüb, dişi sındırılan təbliğat maşını - xəyanət çetesi iflic durumda

Mehmanın adı və məsum görünüşlü fotosu ilə mitinq təbliğatı aparan müxalifət meydana son 15 ildə ən çox adam yığa bilmişdi. Bir yandan da ABŞ, Avropa Mehman Hüseynovla bağlı rəsmi Bakıya görünməmiş və həm də anlaşılmayan formada təzyiq göstərirdi. Sosial şəbəkələrdə də Mehmanın təbliğatı pik həddə çatdırılmışdı. Bu gənc bloger çoxları üçün çörək ağacına çevrilmişdi. Fürsətçilər əllərinə keçən məqamı dəyərləndirdilər.

Yazıçı Süleyman Rəhimovun ssenarisi əsasında çəkilmiş “Qanun naminə” filmində əsərin qəhrəmanı gənc prokuror Mehmanın ətrafına yığışmış sürtük “qaloş”lar, kələkbaz “murtuzov”lar, talançı “anbardar məmmədxan”lar, başıboş “kamilov”lar bu dəfə başqa formada zühur etmişdilər. Müasir “qaloşlar” müdafiə adı ilə əslində Mehmanın həbsdən çıxmasına qarşı idilər. Özlərinin hakimiyyətə qarşı mübarizə aparmağa resursları qalmadığından, tükəndiklərindən, hər mərhələdə mütləq bir qurbanlıq gənci əllərinə keçirib, onun siyasi cəsədini başları üzərinə qaldırıb, iqtidara qarşı savaş görüntüsü yaradırlar. Bununla da var olduqlarını isbatlamağa çalışırlar.

***

Üstündən iki ay keçir. Düz iki ay. Hazırkı mənzərəyə baxıb, nə görürük? Vəziyyət kökündən dəyişib.

Hakimiyyət iki ay öncə bu günlər tam müdafiə mövqeyinə çəkilmişdisə, bu gün bir neçə addımla ictimai rəğbəti tam qazana bilib. Təşəbbüs artıq hakim düşərgədədir. Üstəlik, qeyri-adekvat müxalifəti, onun orbitindəki xəyanət çetesini tam iflic duruma salıb.

***

Sonuncu əfv fərmanı isə bu addımların ən parlağı oldu. Ölkə prezidentinin əfvi əslində hakimiyyətə və Azərbaycana qarşı xain mövqe tutan ayrı-ayrı maraq qruplarının illərdən bəri davam edən təbliğat maşınının dişlərini sındırdı. İndi bu adamların bütün danışıqları dişsiz adamın qüsurlu və gülməli nitqini xatırladır...

Hazırda ictimai düşüncədə bir sual yaranıb: görəsən, hakimiyyət bu qədər siyasi məhbusu azadlığa buraxıb, ölkədə siyasi mühiti, mübarizəni aktivləşdirmək istəyir, yoxsa xarici təzyiqlərin fonunda bu addımı atmağa məcbur oldu?

Əslində ortada olan prezidentin iradəsidir. O, ölkəsinin siyasi həyatına yeni çəki-düzən vermək niyyətindədir. Yəqin bu qədər siyasi iddialı adamları içəridən buraxıb, normal, fəqət sərt bir siyasi rəqabət ortamı yaratmağa çalışır. Mümkündür ki, hakimiyyətin son addımları həm də Avropadakı söyüş makinalarının əhəmiyyətini azaltmağa hesablanıb. Bu uzun və əziyyətli, həmçinin olduqca çətin işi prezident İlham Əliyevdən başqa kimsənin bacaracağı da mümkün deyil. Görünən budur ki, İlham Əliyev ölkəsinə normal, əxlaqlı, söyüşsüz siyasi mübarizə gətirmək fikrindədir. Ona görə də Əli İnsanovu azadlığa buraxmaqda, Əli Kərimlinin müavinlərini, qaynını əfv etməkdə heç bir tərəddüd yaşamadı. Və ən doğrusunu yapdı. Açdı, buraxdı onu hədələyən bütün siyasiləri.

Bir maraqlı məqama da toxunmağı vacib bilirik. Son əfvdən sonra müxalifət düşərgəsində rəqabət mühiti xeyli artacaq. Ən fərqli maraq daşıyıcıları çıxıb türmədən. Onlar içəridə olanda vahid görünürdülər, müttəfiq idilər, mitinqlərdə Əli İnsanovu “qardaşımız” deyə, əzizləyir, xatırlayırdılar. İndi çox keçməz, bu adamlar hakimiyyətin üstünə gəlmək əvəzinə, bir-birinə saldırar. “Mən səndən daha əsil müxalifətəm” yarışına girərlər. Bu, Əli İnsanov türmədən çıxan gün özünü büruzə verdi. Üstündən bir gün keçmiş AXCP sədri Əli Kərimli də İnsanova tikanlı cavab verdi. Onu “yaşlı adam” adlandırıb, aşağıladı, elə saldı.

***

Bu hakimiyyət illərlə siyasi rəqiblərini gözündə həddən artıq böyütdü. İlqar Məmmədovu həbsdə saxlamaqla üzərinə yersiz təzyiqlər aldı. Adam bir çıxdı, hər kəsi özünə güldürdü. Əli İnsanovun da sayəsində dodağımız hələ çox qaçacaq. Ağsaqqal indidən başlayıb zatən...

Birindən soruşurlar, ən ağıllınız hansınızsınız? Cavab verir ki, qabaqda gedən zəncirli.

# “LUKoil”in SOCAR-la əlaqələri strateji əhəmiyyət daşıyır" - Vahid Ələkbərov



**Martın 18-də SOCAR-ın prezidenti Rövnəq Abdullayev Bakıda səfərdə olan Rusiyanın “LUKoil” şirkətinin prezidenti Vahid Ələkbərovla görüşüb. Görüşdə “LUKoil” şirkəti ilə SOCAR arasında olan uzunmüddətli əlaqələrdən söhbət açılıb, Azərbaycanda həyata keçirilən layihələrdə “LUKoil”in iştirakı yüksək qiymətləndirilib. ONA-nın SOCAR-a istinadən verdiyi məlumata görə, Vahid Ələkbərov rəhbərlik etdiyi şirkətin SOCAR ilə əlaqələrinin strateji əhəmiyyət daşıdığını bildirib, Azərbaycan dövləti tərəfindən xarici sərmayədarlara investisiyaların yatırılması üçün münbit şəraitin yaradılmasını yüksək qiymətləndirib, bu baxımdan Azərbaycanda yeni sahələrə investisiya qoyulmasının müzakirə olunduğunu, müxtəlif istiqamətlərdə əməkdaşlıqdan məmnunluğunu ifadə edib.**

Qeyd edək ki, “LUKoil” şirkəti Azərbaycanın neft-qaz sektorunda 1994-cü ildən fəaliyyət göstərir. Şirkət “Şahdəniz” və Cənubi Qafqaz Boru Kəməri layihələrinin hər birində 10% paya malikdir. Bundan başqa, ölkədə pərakəndə yanacaq bazarında iştirak edir.

# Yaşa görə aylıq müavinətlər aprelin 1-dən 80%-ə qədər artırılacaq

**Yaşa görə aylıq müavinətlərin də növbəti ayın 1-dən artırılması təmin olunacaq.**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən virtualaz.org-a verilən məlumata görə, bu müavinətin məbləği aprelin 1-dən 80 faizə qədər artırılmaqla 73 manatdan 130 manata çatdırılacaq. Hazırda ölkədə 60 min nəfər yaşa görə aylıq müavinətlə təmin olunur.




“Sosial müavinətlər haqqında” Qanuna əsasən, yaşa görə müavinət 62 yaşına çatmış qadınlara, 67 yaşına çatmış kişilərə (əmək pensiyası hüquqları olmadıqda) və işləmədikdə təyin edilir. Bununla belə, 3 və daha çox uşaq doğub 8 yaşınadək tərbiyə etmiş, yaxud sağlamlıq imkanları məhdud övladını 8 yaşınadək tərbiyə etmiş 57 yaşına çatmış qadınlar və ana vəfat etdiyinə, yaxud analıq hüququndan məhrum edildiyinə görə 3 və daha çox uşağı və ya sağlamlıq imkanları məhdud övladını növbəti nikah bağlamadan təkbaşına 8 yaşınadək böyüdən 62 yaşına çatmış kişilər də (əmək pensiyası hüquqları olmadıqda) və işləmədikdə onlara yaşa görə aylıq sosial müavinət təyin edilir.

25 fevral 2019-cu il tarixli sərəncamın əhatə etdiyi əhali qruplarından biri də ailə başçısını itirməyə görə müavinət alanlardır. Sənədə əsasən, həmin müavinətin məbləği ailə başçısını itirməyə görə müavinət alan ailə üzvlərinin hər biri üzrə 68 manatdan 80 manata çatdırılacaq. Ümumilikdə 46 min nəfər bu müavinətlə təmin olunur.

# Çörəyin istehsalı və satışı daha 1 il ƏDV-dən azad oluna bilər

**Azərbaycanda buğdanın idxalı və satışı, həmçinin buğda unu və çörəyin istehsalı və satışının daha 1 il müddətinə əlavə dəyər vergisindən azad edilməsi təklif olunur. Bu barədə "Trend"ə Milli Məclisdən bildirilib.**



Bu məsələ bu gün parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında müzakirə olunan Vergi Məcəlləsinə dəyişikliklərdə öz əksini tapıb.

Dəyişikliklərlə vergidən azad etmənin 2019-cu il martın 1-dən uzadılması nəzərdə tutulub.

Xatırladaq ki, 2016-cı ildən Azərbaycanda buğda idxalı və satışı, buğda unu və çörəyin istehsalı və satışı ƏDV-dən azad olunub. 2017-ci ildə vergidən azad etmə 4 il müddətinə uzadılıb.

YENİ MÜSAVAT
N 62 (7232) 19 mart 2019

# Yeni əfv anonsu - həbsdə qalan azsaylı siyasi fəallar da azad edilə bilər

## Səidə Qocamanlı: "Qarşıdakı bayramlar ərəfəsində də əfv sərəncamı gözləmək olar"



**Martın 16-da prezident İlham Əliyev tərəfindən imzalanan əfv sərəncamı cəmiyyətdə çox yüksək qarşılanıb. Əfv edilənlərin sırasında 50-dən çox siyasi fəalın da yer alması xüsusi rəğbətlə qarşılanıb. Bu, cəmiyyət-iqtidar münasibətlərinin möhkəmlənməsində mühüm addım hesab olunur.**

Həmçinin həbsdə qalan bir neçə siyasi fəalın - Seymur Həzi, Asif Yusifli, İslam Partiyasının keçmiş sədri Mövsüm Səmədov, ilahiyyatçı Abgül Süleymanov və digərlərinin də qarşıdakı müddətdə azadlığa buraxılması arzu edilir.

Vurğulanır ki, hökumət tərəfindən cəmiyyətə yönəlik siyasi açılımların fonunda həmin şəxslər də qarşıdakı aylarda azad edilə bilər.

Praktikada olmasa da, bu ilin sonuna qədər daha bir əfv sərəncamının imzalana biləcəyi barədə xəbərlər dolaşır.

**"Yeni Müsavat"a danışan hüquq müdafiəçisi, İnsan Haqları üzrə Birgə İşçi Qrupunun üzvü Səidə Qocamanlı dedi ki, Azərbaycanda islahatların gedişi göz qabağındadır:** "Bunu danmaq insafsızlıq olardı. Bu ilin əvvəlindən başlayaraq prezident tərəfindən atılan müsbət addımların şahidi olmaqdayıq. Son addım isə ən möhtəşəmi oldu. Bizim təqdim etdiyimiz siyahıdakı 55 nəfər də azadlığa buraxıldı. Onu da qeyd edim ki, siyahımızdakı beş nəfər yanvar və fevral aylarında ya cəzaları bitib azad olunublar, ya da vaxtından əvvəl şərti olaraq azadlığa çıxıblar. Ümumilikdə götürsək 60 nəfərin azad olunması ilə siyahımız qapandı. Seymur Həzi və Asif Yusiflinin azadlığa çıxmalarına çox az müddət qalıb. Düşünürəm ki, onlar qısa zamanda azadlığa buraxılacaqlar. Ümidlənməyimizə əsas var. Bilirsiniz ki, 2017-ci ildə prezident tərəfindən ədliyyə sahəsində humanistləşdirilmə ilə bağlı sərəncam verildi. O sərəncamdan keçən iki il ərzində məhkəmə yolu ilə çoxsaylı insan azad olunub. Bu iki şəxs haqqında da məhkəmə yolu ilə azadlığa buraxılma qərarı verilə bilər. Həbsdə qalan digər siyasilərin bu il azadlığa buraxılacağına ümid edirəm. Belə fikirlər səslənir ki, may ayında yenidən əfv sərəncamı veriləcək. Açığı, bunun baş verəcəyini düşünmürəm. Çünki iki ay ərzində yenidən əfv vermək halı bu günə qədər baş verməyib. Amma bilirsiniz ki, əfv sərəncamı vermək cənab prezidentin səlahiyyətidir. Üzümüzə gələn bayramlar ərəfəsində əfv gözləmək olar. Siyasi məhbuslarla bağlı beynəlxalq təşkilatlar Azərbaycana yönəlik təzyiqlər edirdilər. İndi bu əfv həmin qurumlar tərəfindən müsbət qiymətləndirilib. Bu da elə-belə olmadı. Biz bir daha beynəlxalq aləmə göstərdik ki, əgər hər hansı bir problemimiz varsa, biz onu həll edə bilərik. Əminliklə deyirəm ki, bu sərəncam dövlət strukturları, prezidentlə vətəndaş cəmiyyəti arasında aparılan danışıqlar nəticəsində imzalandı. Bununla bağlı cənab prezidentə bir daha təşəkkür edirik. 400-dən çox insan əziz bayramı evində keçirəcək. Bizləri ən çox sevindirən odur ki, işimizə qiymət verildi".

**Hüquq müdafiəçisi yeni bir əfvə ehtiyacın olub-olmadığı yönündə sualımıza bu cür cavab verdi:** "Ölkə başçısı tərəfindən ötənlərdə Yeni il, Qurban bayramı, Novruzda əfv sərəncamları imzalanıb. Bu il yeni bir əfv verilə də bilər. Həbsxana heç vaxt yaxşı yer olmayıb. İnsanın azadlıq hüququnu əlindən alır. Buna kiminsə ağız büzməsi, əleyhinə fikirlər səsləndirməsi dözülməz bir haldır. Hüquq müdafiəçiləri olaraq məhbusun siyasi olub-olmadığı bizi o qədər də maraqlandırmır. İndi azad olunanlar arasında elələri var ki, ağır xəstədir, övladları yollarını gözləyirdi. Onların azadlığa buraxılmaları ən böyük sevinc deyilmi? Azad edilənlər arasında qadınların olmasına necə sevinməmək olar? Gözəl Bayramlı üçün çox sevindik. Yeganə siyasi məhbus qadın idi ki, həbsxana həyatı yaşayırdı. Əfv etmək Allah tərəfindən verilən yüksək bir hissdir. Onu hər adam bacara bilməz, hər adama da bu şamil edilməz. Prezidentimiz bu hissə qadir bir insandır. Əgər cənab prezident belə bir əfv verdisə, bu o deməkdir ki, digər məhbusların azad edilməsi davamlı olacaq. Biz artıq siyasi məhbus problemindən birdəfəlik azad olub, xalq olaraq Qarabağ probleminin həlli üçün ayağa qalxmalıyıq. Bunun vaxtı çoxdan çatıb".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# Azərbaycan tarixinin ən böyük siyasi əfvi

## İsa Qəmbər və İsgəndər Həmidovdan əfv fərmanına müsbət reaksiyalar

**Prezident İlham Əliyevin məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında imzaladığı sərəncam 431 nəfərə şamil olundu. Azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş 399 nəfər cəzanın çəkilməmiş hissəsindən azad edildi. Əfv olunanlar sırasında tanınmış məhkumlar da var.**

Cəmiyyətin demək olar ki, bütün təbəqələri bu əfv fərmanını alqışlayır və Azərbaycanda siyasi məhbus adlandırılan məhbusların azad olunması baxımından ən böyük əfv fərmanı kimi qəbul edir. Bildirilir ki, prezident İlham Əliyevin siyasi opponentlərini, hakimiyyət tənqidçilərini vaxtından əvvəl həbsdən azad etdiyi ilk dəfə deyil və son da olmayacaq, amma ilk dəfədir ki, 50-yə yaxın siyasiləşmiş dustaq bir əfv sərəncamı ilə azadlığa buraxılıb.

Sabiq spiker, Strateji Düşüncə Mərkəzinin sədri İsa Qəmbər bu əfv fərmanını "Son illərin ən böyük əfv qərarı verildi"-deyə qiymətləndirib. İsa Qəmbər qeyd edib ki, qalan bütün digər siyasi məhbuslar da azad edilməlidir. Və ən əsası Azərbaycanımızda heç bir insan siyasi motivlərlə həbs edilməməlidir.

**Sabiq daxili işlər naziri İsgəndər Həmidov "Yeni Müsavat"a bildirib ki, bu əfv fərmanına görə hər kəsə təbrik düşür:** "Bütün həbsdən azad olunan insanları təbrik edirəm. Onların ailələrinin, əzizlərinin gözü yolda idi. Hər birinin gözü aydın. Bu çox tərifəlayiq addımdır və mən həmin insanların azad olunmasına sevindim. Azərbaycanda bu qədər sayda siyasi məhbus heç zaman əfv edilməmişdi. Bu baxımdan bu əfvi Azərbaycan tarixinin ən geniş əhatəli əfv fərmanı adlandırmaq olar. Eyni zamanda onu da deyim ki, gərək heç Azərbaycanda siyasi məhbuslar olmayaydı ki, siyasi məhbusların da əfvinə ehtiyac qalmasın. Bizim ölkəmizdə elə bir siyasət aparılmalıdır ki, burada siyasi dustaq problemi olmasın. Heç olmasa bundan sonra elə edilməlidir ki, yeni siyasi məhbuslar yaranmasın".

**AĞ Partiyanın sədri Tural Abbaslı isə əfv kimi humanist addımları hər zaman alqışladıqlarını və dəstəklədiklərini dedi:** "Bayram öncəsi 431 ailənin sevincinə sevinc qatıldı. Sevindirici hal odur ki, əfv siyahısında siyasi baxışları fərqli olan 51 insanın da adı var. Burada Gözəl xanımın, İlkinin, Qiyasın, Bayramın və sair bu kimi dostların azadlığa çıxması bizi daha da sevindirir. Doğrudur, hələ də azadlığını gözləyən məhbuslarımız kifayət qədərdir. Ümid edirik, yaxın zamanlarda onları da azadlıqda, öz ailələrinin və əzizlərinin yanında görəcəyik. Bu gün Azərbaycanın dövlət olaraq ən çox ehtiyac duyduğu milli barışıqdır. Milli barışıq olmadan nə dövlətimiz güclənə bilər, nə də Qarabağımız azadlığa qovuşar. İqtidarın bu yöndə addımlarını davam etdirəcəyinə və daha prinsipial islahatlar edəcəyinə ümid edirik".

**Deputat Aqil Abbas isə moderator.az-a açıqlamasında bayram ərəfəsində ölkə başçısının imzaladığı əfv sərəncamının təqdirəlayiq olduğunu bildirib:** "Əfv sərəncamı Novruz bayramı ərəfəsində azadlığa çıxan məhkumlara bayram hədiyyəsidir. Onlar ailələrinə, əzizlərinə, balalarına, qovuşdular, buna yalnız sevinmək olar. Böyük bir əfv sərəncamıdır. Prezident tərəfindən bu günə kimi 32 əfv sərəncamı imzalanıb və bu da 33-dür. Minlərlə məhbus əfv olunub və bura onun siyasi baxışının aidiyyəti yoxdur. Bu dəfə də ölkə başçısı tərəfindən əfv olunanlar sırasında insan hüquqlarının müdafiəsi ilə məşğul olanların siyasi məhbus adlandırdıqları şəxslər də azadlığa çıxdı, amma onların hər biri müəyyən bir cinayətə görə həbs edilmişdi. Onların əfv olunması bir daha onu göstərdi ki, Azərbaycanda insanları siyasi görüşünə görə təqib etmirlər".



**A.Abbas bəzi məhbusların və siyasi şəxslərin çıxışlarının həqiqətə uyğun olmadığını bildirib:** "Rayonda seçicilərimlə görüşən zaman onlar da ölkə başçısına bu humanist addımına görə təşəkkürlərini çatdırmağımı xahiş etdilər. Əslinə qalanda siyahıda onların heç əfv olunan yaxınları yox idi. Əfv olunan şəxslərin bəzilərinin və siyasilərin çıxışı xoşuma gəlmir. Deyirlər ki, guya biz dedik, ya da Amerika deyəndən sonra o şəxslər azadlığa buraxıldı. Onda bu günə kimi imzalanan 32 əfv sərəncamı da onların sözləri ilə imzalanıb? İnsanın bir təşəkkür borcu olar. Emin Milli görürsünüz ki, ölkə başçısına təşəkkür etdi və hətta vətənə qayıtmaq istəyir".

**Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) səlahiyyətli nümayəndəsi, "Məşhədi Dadaş" məscidinin axundu Hacı Şahin Həsənli bildirib ki, müxtəlif və o cümlədən inanclı insanların əfv edilməsi cəmiyyətdə barış mühitinin formalaşmasına, müəyyən radikal təzahürlərin artmasına mane olur. Ona görə də istər dini, istərsə də ictimai cəhətdən məsələyə yanaşsaq, ancaq müsbət fikirlər demək olar:** "Bayram ərəfəsində insanların əfv olunması cəmiyyət tərəfindən də birmənalı olaraq rəğbətlə qarşılanan bir addımdır. Təbii ki, bu işdə vasitəçi olanların və xidmət göstərənlərin Allah yanında böyük savabı var, çünki insanı əziyyətdən xilas etmək, ayrılıqda olan insanları qovuşdurmaq dinimizdə bəyənilən əməl sayılır. Novruz bayramında küsülüləri barışdırmaq da qovuşdurmağa xidmət etməyin başqa bir formasıdır. Məhbus həyatı yaşayan insanların əfv olunması onların ailələrinə və yaxınlarına qovuşması deməkdir. Bu da Allah yanında ən dəyərli əməllərdən biri sayılır".

**"Rüfətin azadlığa qovuşmasını gözləmirdim, lakin bu, baş verdi. Valideyn olaraq sevinc içərisindəyəm". Bunu isə Müdafiə Nazirliyinin sabiq mətbuat xidmətinin rəhbəri Eldar Sabiroğlu AzadlıqRadiosuna oğlu Rüfət Səfərovun azadlığa buraxılmasına münasibət bildirərkən deyib.**

**E.Sabiroğlu bildirib ki, prezident xeyirxah bir addım atıb:** "Azad olunan bütün məhbuslar üçün sevinc hissi keçirirəm".

**Politoloq Abbas Məhərrəmli isə bildirdi ki, prezident İlham Əliyevin imzaladığı son əfv fərmanı dövlət rəhbərinin milli həmrəyliyə xidmət edən addımıdır:** "Bunu birmənalı qəbul etmək lazımdır ki, məhbusları əfv səlahiyyəti dövlət başçısına məxsusdur və son əfv fərmanı hansısa kənar qüvvənin, qüvvələrin deyil, məhz İlham Əliyevin iradəsinin nəticəsidir. Bunun əksini iddia etmək qeyri-ciddilik olardı. Digər tərəfdən, bu əfv fərmanına ölkədə son aylar reallaşdırılan ciddi dəyişikliklərin tərkib hissəsi kimi də baxmaq mümkündür. Yeni əhalinin sosial müdafiəsinin yaxşılaşdırılması istiqamətində atılan addımlarla yanaşı, artıq digər sahələrdə də ciddi dəyişikliklərin əlamətlərini görməkdəyik. Baxın, onlarla müxalifət fəalı, hətta Əli İnsanov kimi özünü barışmaz göstərən məhbus azadlığa buraxıldı. Bu, o deməkdir ki, prezident cəmiyyətdə gərginliyə səbəb olan, milli həmrəyliyə, siyasi münasibətlərə mənfi təsir göstərən amilləri bir-bir aradan qaldırmağa qərarlıdır".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 62 (7232) 19 mart 2019

# “Növbədənkənar parlament seçkilərini zəruri edən səbəblər var”

## Qabil Hüseynli: “Qanunverici hakimiyyətin yenilənməsinə, işinin daha da səmərəli olmasına ehtiyac duyulur”

**Bu ilin əvvəlindən başlayaraq ölkə prezidenti İlham Əliyev tərəfindən ən müxtəlif sahələr üzrə mühüm sərəncamlar verilir, iqtisadi-sosial, ictimai-siyasi sferada müsbət addımlar atılır. İnqilabi xarakterli islahatlar tamamilə yeni bir atmosfer yaradır.**




Son iki ay ərzində ölkə rəhbəri şəhid ailələri ilə görüşdü və birdəfəlik müavinət ala bilməyən bu ailələrin problemi həll olundu. Problemli kreditlər barədə də prezidentin cəmiyyətin bütün təbəqələri tərəfindən rəğbətlə qarşılanan qərarı oldu və həmin qərardan sonra bu problem aradan qalxmaq üzrədir. Pensiyalar, minimum əməkhaqları, sosial müavinətlər qaldırıldı. Ölkə başçısının bir sıra rayonlara da səfərləri oldu, xalqla yaxından təmas quran prezident onların problemləri ilə maraqlandı, şəxsən özü şikayətçilərin əllərindən onların ərizələrini aldı. Bu cür faktlardan ibarət siyahını uzatmaq da olar.



Habelə, bloger Mehman Hüseynovun işi, iki gün öncə isə geniş miqyaslı əfv sərəncamının imzalanması da böyük rezonans doğurub. Sərəncamla həbsdəki 55 siyasi fəal da azad edildi, bütövlükdə əfv 431 nəfərə şamil olundu. Novruz əfvi təkcə ölkə daxilində deyil, beynəlxalq qurumlar tərəfindən də alqışlarla qarşılandı.

Son olaraq, martın 18-də sərəncam imzalayan ölkə rəhbəri 2019-cu ilin dövlət büdcəsindən, prezidentin ehtiyat fondundan Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə 5 milyon manat ayırıb.

Bu vəsait Azərbaycan Respublikasının ərazi bütövlüyü, müstəqilliyi və konstitusiya quruluşunun müdafiəsi, 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar, habelə Çernobıl AES-də qəza nəticələrinin aradan qaldırılması ilə əlaqədar əlilliyi olan şəxslərin, İkinci Dünya müharibəsi əlillərinin və onlara bərabər tutulan şəxslərin avtomobillə təminatına yönəldiləcək.

Bütün bunların fonunda ölkədə tam yeni bir siyasi mühit formalaşdığı və bunun növbədənkənar parlament seçkilərinə də zəmin yaratdığı ekspertlər tərəfindən vurğulanır. Qeyd edək ki, hələ bir müddət öncə bu haqda ilkin informasiyalar “Yeni Müsavat”a daxil olmuşdu.

İlkin xəbərdə parlament seçkilərinin bu ilin aprel-may aylarında baş tutacağı iddia olunurdu. “Yeni Müsavat”a daxil olan son məlumatda isə bildirilir ki, növbədənkənar seçkilərin keçirilməsi üçün konstitusiyada dəyişikliklər edilməsi zərurəti olduğundan proses sentyabr-oktyabr aylarınadək uzana bilər.

Ekspertlər bütün hallarda bu islahatların məntiqi davamı kimi qanunverici orqanda da dəyişikliklərin ola biləcəyini ehtimal edirlər. Hətta hökumət daxilində artıq seçkilərə hazırlıqların getdiyi də gələn xəbərlər sırasındadır. Belə iddialar da səslənir ki, bu ilin dekabrında keçiriləcək bələdiyyə seçkiləri ilə parlament seçkiləri eyni günə təsadüf edə bilər.

**Sabiq dövlət müşaviri, politoloq Qabil Hüseynli parlament seçkilərinin keçirilməsi üçün zərurətin yarandığını düşünür. “Yeni Müsavat”a açıqlamasında sabiq müşavir bunları dedi:** “Aparılan struktur islahatlarının davamı mütləqdir. Yəni idarəetmə aparatı sadələşdirilir, artıq lüzumsuz, bürokratik aparatdan imtina edilir, daha çevik və mobil idarəetmə sistemləri tətbiq edilir. Bunun hesabına idarəetmə çevik olmaqla yanaşı, həm də asanlaşır. İdarəetmədə bürokratik əngəllər yaradan, rüşvətə, korrupsiyaya yol açan sahələrin bəziləri “ASAN Xidmət”ə verilir. Beləliklə də dövlət orqanları xeyli şəffaflaşır. Məmur özbaşınalığına tədricən olsa da, son qoyulmağa başlanılıb. Sıravi insanları incitməyi özlərinin peşələri sayanlar idarəetmədən uzaqlaşdırılır. Bununla da idarəetmə humanist xarakter daşımağa başlayıb. Düşünürəm ki, idarəetmənin qolları arasında əlaqələrin yaradılmasına ciddi ehtiyac duyulur. Yəni hakimiyyətin icraedici orqanları ilə qanunverici orqanları, eləcə də məhkəmə orqanları arasında bölgünün dəqiqləşdirilməsi, "hakimiyyətin üç qol prinsipi"nə dünya praktikasına uyğun olaraq əməl edilməsi məsələsi də gündəmə gəlir. Bu gün bəzi məsələlərlə bağlı etiraf etmək lazımdır ki, qanunverici hakimiyyətin rolu bəzən icraedici hakimiyyətin rolu ilə qarışdırılır. Məhkəmə orqanlarında ciddi siyasi islahatlara ehtiyac var. Bu orqanların müstəqilliyi xeyli artırılmalı, onun işinə ictimai nəzarətin gücləndirilməsi xeyli vacib görünür. Çünki bu gün hüquq-mühafizə orqanlarındakı özbaşınalıq, rüşvət və korrupsiya halları hələ ki durdurula bilməyib, bu proses davam etməkdədir. Məhkəmə hüquq islahatları köklü aparılmalıdır. Elə edilməlidir ki, məhkəmə sisteminə hakimiyyətin digər qolunun təsir etmək imkanı olmasın. Nəticə etibarı ilə qəbul edilmiş qərarlar qanunvericiliyə söykənməlidir. Prezident bunların anonslarını verib, növbəti islahatların məhkəmə orqanlarını əhatə edəcəyi barədə fikirlər səsləndirib. Düşünürəm ki, bu kontekstdə qanunverici hakimiyyətin yenilənməsinə, işinin daha da səmərəli olmasına ehtiyac duyulur. Çünki vəzifələrindən istefa vermiş deputatlar var, dünyasını dəyişən deputat da var. Kifayət qədər passiv, qanunvericilik hakimiyyətinin səlahiyyətlərini bilməyən, qanunvericilik məsələsində səsi olmayan adamlar da az deyil. Parlament sözün həqiqi mənasında peşəkar olmalıdır. Milli Məclis peşəkar adamlardan, özü də qanunvericilik məsələlərini dərindən bilənlərdən təşkil olunmalıdır. Bu məsələdə iş təcrübəsinə önəm verilməlidir ki, qanunverici hakimiyyət ölkədə möhkəmlənsin, digər proseslərə təsir etmək imkanları olsun. Düşünürəm ki, parlament seçkilərinin qabağa çəkilməsində heç bir qəbahət yoxdur. Bunun üçün hətta kifayət qədər zərurət yaranıb. Üstəlik də islahatlar dərinləşdikcə daha da radikal əhəmiyyət kəsb edir. Bunun fonunda hakimiyyətin hər üç qolunda islahatlar başa çatmalıdır. Kadr islahatları artıq davamlı xarakter daşımağa başlayıb. Məhkəmə islahatlarının başlanılması haqqında rəylər var. Qanunverici orqanın yenidən seçilməsi, qanunvericiliyə edilən dəyişikliklərlə struktur dəyişikliklərinin də əsası qoyula bilər".

❑ **Cavanşir ABBASLI, “Yeni Müsavat”**



# Prezident onlara avtomobil alınması üçün 5 milyon ayırdı

## Nazirlik: “Bu il 600-dək şəxsə avtomobil veriləcək”

**Prezident İlham Əliyev dünən “Azərbaycan Respublikasının ərazi bütövlüyü, müstəqilliyi və konstitusiya quruluşunun müdafiəsi, 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olmuş, Çernobıl AES-də qəza nəticələrini aradan qaldırmaqda iştirak edib əlilliyi olmuş şəxslərin, II Dünya müharibəsi əlillərinin və onlara bərabər tutulanların xüsusi nəqliyyat almaq üçün tibbi göstərişlər üzrə avtomobillə təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında” sərəncam imzalayıb. Sərəncamda qeyd olunan kateqoriyalardan olan vətəndaşların xüsusi nəqliyyat almaq üçün tibbi göstərişlər üzrə avtomobillərlə təminatının gücləndirilməsi məqsədilə 2019-cu il dövlət büdcəsində nəzərdə tutulan Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan 5 (beş) milyon manat ayrılması tapşırılıb.**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin ictimaiyyətlə əlaqələr şöbəsindən “Yeni Müsavat”a verilən məlumata görə, ayrılan vəsait hesabına sərəncamda qeyd olunan insanlara 400-dən yuxarı avtomobil alınacaq: “Beləliklə, cari ildə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən müharibə əlillərinə və onlara bərabər tutulanlara nəzərdə tutulduğundan (180 avtomobil) 3 dəfədən çox olmaqla 600-dək avtomobil təqdim olunacaq”.

Qeyd edək ki, ötən il ərazi bütövlüyünün müdafiəsi və 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar, habelə hərbi xidmət vəzifəsini yerinə yetirərkən əlil olmuş şəxslərə, Böyük Vətən müharibəsi əlillərinə, Çernobıl əlillərinə 265 avtomobil verilib. Bununla da indiyədək təqdim olunan minik avtomobillərinin sayı 6 144-ə çatıb.

Nazirlikdən bildirildiyinə görə, hazırda dövlət büdcəsi hesabına minik avtomobili ilə təmin olunmaq üçün növbədə dayanmış əlilliyi olan vətəndaşların sayı 997 nəfərdir ki, cari il ərzində onlardan da artıq 600-ə yaxın şəxsin avtomobillə təminatı həyata keçiriləcək.

❑ **DÜNYA, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 62 (7232) 19 mart 2019



# Şuşada ilaxır çərşənbə

Zahid SƏFƏROĞLU
zsafaroglu@gmail.com

**Paşinyan Azərbaycan xalqını sülhə hazırlayacaqmış. Ən absurdu odur ki, bu bəyanatı o, məhz oğrun yolla, "arxa qapı"dan keçib gəldiyi işğal altındakı Qarabağda, evimizin içində, çağırılmamış qonaq olaraq verib! Yenə İrəvanda oturub sülh bayatısı oxusaydı, bəlkə səmimi görünə bilərdi...**

Təəssüf, sələfləri kimi, Paşinyanın nəzərində də bizim üçün sülh məhz təslimçi sülh anlamındadır. Çünki ermənilərin düşüncəsində Azərbaycanla barış Dağlıq Qarabağın ya müstəqil olması, ya da Ermənistana birləşdirilməsi deməkdir. Üstəlik, biz separatçılara "ana-Ermənistan"la quru əlaqəsi üçün "dəhliz" də verməliyik.

Azərbaycan xalqını Paşinyan belə bir "barış"a hazırlamaq istəyir. Əks halda, təkrar edirik, bu bəyanatı o gəlib Azərbaycandan səsləndirməklə özünü gülünc duruma salmazdı. Sanki hansısa quldur-bandit sənin evinin 20%-ni yağmalayıb, illərdir orada məskunlaşıb, hələ qohum-əqrəbasını da ora yerləşdirib, sonra da ev yiyəsinə təklif edir ki, olan oldu, keçən keçdi, gəl bu evdə dinc-yanaşı, sülh içində yaşamaq barədə anlaşaq...

Yəqin Paşinyan da ondan öncəkilər kimi, azərbaycanlıları "torpaq əvəzinə torpaq (Qarabağ)" şərəfsizliyinə gedəcək qədər avam sayır. Öz torpaqlarımızı siyasi bazarlığa çıxaracağımızı zənn edir. Ötən 30 il bunlara dərs olmadı. Hələ də onlara çatmayıb ki, Azərbaycanda belə alverə, kapitulyasiyaya qol qoyacaq lider, siyasi qüvvə, partiya, QHT, siyasətçi yoxdur, olmayacaq, gözlənilmir!..

Əlbəttə, Azərbaycan xalqını sülhə hazırlamağa ehtiyac yoxdur. Hansı hazırlıqdan, nəyə hazırlıqdan söhbət gedir? 6 rayon yarımın boşaldılması qarşılığında Dağlıq Qarabağı "Laçın dəhlizi" ilə birgə Ermənistana peşkəş eləməkdən, yaxud torpaqlarımızda ikinci saxta erməni dövlətinin yaranmasına izn verməkdənmi?

Biz bir qondarma erməni dövlətinin yaranmasına göz yumduq. Əvəzində qardaş Türkiyə ilə 100 ildir altını çəkirik. Ona görə ki, Ermənistan adlı psevdo-dövlət ermənilərdən qat-qat çox Rusiyaya xidmət edib və edir. Moskvanın, xristian güc mərkəzlərinin əlində alət, maşa rolu oynayır. Erməni xalqının deyil, həmin mərkəzlərin iradəsinə istinad edir. Müasir dövlət suverenliyinin, müstəqilliyin heç bir xüsusiyyətini özündə daşımır. Təsəvvür edin, Ermənistanın Rusiya ilə 2047-ci ilədək qüvvədə olacaq "siğə müqaviləsi" var. 1997-ci ildə 50 illiyə bağlanıb. Allah qoymasa, ondan sonra da uzadacaqlar.

Elə isə bölgədə ikinci belə bir maşa-dövləti yaradıb Kremli və ya ermənilərin yeni ağalarını sevindirməyə dəyərmi? Hətta Dağlıq Qarabağa müstəqillik verilsə və ya o, Ermənistana birləşdirilsə belə, bölgəyə sülh gəlməyəcək. Ermənin torpaq iştahası bitməyəcək. Əksinə, əmin olun ki, iştah daha da artacaq. Çünki Naxçıvan, Qars var. Ona da əmin olun ki, gələn dəfə erməni rusun, anqlo-saksonun, fransızın daha güclü dəstəyini alacaq. Çətini Azərbaycanın saqqızını oğurlayıb onu "öz müqəddəratını təyin etmə" tələsinə salmaq və presedent yaratmaqdır. Odur ki, bu dəfə Qarabağ məsələsini kökündən, həmişəlik həll eləməliyik...

Bu gün ilaxır çərşənbədir. Artıq 27-ci ildir mədəniyyət incimiz Şuşada, işğal altındakı başqa şəhər-kəndlərimizdə Novruz tonqalı qalanmır, Şuşa məscidindən azan səsi eşidilmir.

Srağagün müdafiə nazirimiz hərbi hissələrin birində əsgərlərimizlə birgə bayram tonqalı yandırıb. Simvolik hadisədir. Bu, o deməkdir ki, belə tonqallar Şuşada, üzünə həsrət qaldığımız digər şəhər və kəndlərimizdə də qalanacaq. Ancaq bundan ötrü gərək əvvəlcə işğalçının ayağının altındakı torpağı yandıra bilək. Bunu isə Azərbaycan Ordusu edə bilər və edəcək İnşallah.

Odur ki, Paşinyan nə qədər gec deyil, qoy öncə özünü və öz xalqını sülhə hazırlasın. Çünki yad torpaqlara göz tikməklə sonu görünməyən bəlaya düçar olan erməni xalqıdır, biz yox, onu yanlış yönləndirən də avantürist erməni rəhbərləridir, Azərbaycan yetkililəri yox.

Ermənilər dərk etməlidirlər ki, özlərinə aid olmayana, harama əl uzadıblar, onu gec-tez qaytarmaq gərəkdir! Yeni başlarına ağıl qoyulmalı, özgə torpaqlardan çıxmağın zəruriliyinə inandırılmalı toplum məhz onlardır. Bizim şükür ki, belə dərdimiz, problemimiz yoxdur...

Bir az da tələssinlər və düşünməsinlər ki, Şuşada azan səsi daha eşidilməyəcək, ilaxır çərşənbə tonqalı Qarabağda qalanmayacaq. "Su gələn arxa bir də gələr". Və gələcək...

# İqtidar-müxalifət gərginliyini kim körükləyir?

## Fəzail Ağamalı: "Ona komanda verilə bilər ki, sən bu cür danışmalısan"

**Prezident İlham Əliyevin 431 məhbusu əhatə edən, 50-dən çox siyasi məhbusun azad olunduğu sərəncamı alqışlanmaqdadır. Təsadüfi deyil ki, müxalif kəsimin tam əksəriyyəti də Novruz əfvini müsbət dəyərləndirdi.**

Amma bununla belə, bir nüans diqqəti daha çox çəkdi. Belə ki əfv barədə AXCP sədri Əli Kərimli və tərəfdarları tamam fərqli mövqe sərgiləyirlər. Halbuki AXCP sədrinin bu sərəncamla iki müavini-Gözəl Bayramlı və Fuad Qəhrəmanlı azad olunub. Doğrudur, Ə.Kərimli əfvə münasibətini ifadə edən ilk feysbuq statusunda sərəncamı müsbət qarşıladığını bəyan etdi. Amma ardınca tamam fərqli mövqe sərgiləməyə başladı. Xüsusilə azadlığa buraxılan siyasiləri ziyarət edərkən AXCP lideri əfv əleyhinə daha sərt mövqe nümayiş etdirdi.

Bütün bunlar da haqlı olaraq bəzi iddialara yol açıb. AXCP sədrinin iqtidar-müxalifət münasibətlərində gərginliyin qalmasında maraqlı olduğu bildirilir. Təsadüfi deyil ki, hökumətin son iki ayda atdığı hər bir müsbət addım cəbhəçilər tərəfindən süngü ilə qarşılanıb.

**Ana Vətən Partiyasının sədri, deputat Fəzail Ağamalı bunların təsadüf olmadığını düşünür:** "Sizin qəzetinizin ötən sayında əfv sərəncamı ilə bağlı fikirlərimi geniş şəkildə ifadə etmişəm. Ölkə prezidentinin şəxsi xarakterinə və söykənmiş olduğu dəyərlərə, mərhəmətliyə söykənən əfv sərəncamı çoxsaylı ailələrə sevinc gətirdi. Əziz bayramımız ərəfəsində bu addımı atmaq heç şübhəsiz ki, ölkə prezidenti ilə xalqın bir yerdə olduğunun sübutu idi. Bu proses davam edəcək. Başlamış olan islahatlar davamlı olacaq. Ölkəmizdəki problemləri aradan qaldıracaq addımlar bundan sonra da atılacaq. Buna heç



kəsin şübhəsi olmasın. Ölkə prezidentinin ötən ilin aprelində prezident seçildikdən sonra islahatları dərinləşdirməsi və cəmiyyətin bütün təbəqələrini əhatə edən addımlar atması xalqımızın mütləq əksəriyyəti tərəfindən müsbət qarşılanıb, yüksək dəyərləndirilib. Bu şəkildə də davam edir. Hətta müxalifətin ayrı-ayrı qanadlarının bununla bağlı obyektiv fikirləri ortalıqdadır. Təəssüflər olsun ki, əfv sərəncamını iki nəfər obyektiv, doğru və düzgün qiymətləndirmək əvəzinə qərəzli mövqedən çıxış etdilər. Deyərdim ki, ən azından azadlığa qovuşan insanların fikirləri ilə həmrəy olmadılar. Bunlardan biri Əli Kərimli, digəri isə Əli İnsanov oldu. Hər ikisində qərəz, barışmazlıq, radikallıq və açıq şəkildə ifadə olunan barışmaz düşmənçilik özünü göstərdi. Siyasətdə bu qəbul olunmur. Siyasətdə opponentlik, fərqli düşüncələri özündə ifadə edən siyasi mübarizə və onu sivil formada aparmaq qəbul ediləndir. Bütün mənalarda buna hər hansı bir alternativ fikir ola bilməz. Əgər cəmiyyətdə gedən müsbət dəyişiklikləri, atılmış olan müsbət addımları, bütövlükdə dövlətimizin və xalqımızın güclənməsinə, vətəndaş cəmiyyətinin daha dayanıqlı olmasına, əhalinin həyat səviyyəsinin yüksəlməsinə xidmət edən addımlar təqdir olunmursa, bu, artıq birmənalı şəkildə həmin şəxslərin Azərbaycan xalqından, onun düşüncələrindən kənarda qaldığını nümayiş etdirir. O insanlar çox məhdud bir dairədə azsaylı insanlarla birlikdə fəaliyyət göstərirlər və onların cəmiyyətdə yerləri və rolları son dərəcə məhduddur. Bu cür açıqlamalar tam əminəm ki, xalqımız tərəfindən çox pis qarşılanır. Əslində bu siyasətçinin böyük faciəsidir. O, özünün daxilindəki qərəzi, nifrəti açıq şəkildə büruzə verirsə, yaxud xalqın düşündüklərini önə çəkib onu aradan qaldırmaq ilə bağlı fikirlərini ifadə etmirsə, belə insanlar cəmiyyət tərəfindən heç vaxt qəbul oluna bilməzlər. İqtidar bu addımları atırsa, bu addımların xalqın və dövlətin mənafelərinə xidmət etdiyi birmənalıdırsa, xalq bunu dəstəkləyirsə, bunlara qarşı olan qüvvələr özlərini xalqımızın iradəsinə qarşı qoymuş olurlar. Bu həmin siyasətçilərin faciəsidir, eyni zamanda Əli Kərimlinin". **Deputat AXCP sədrinin əfv statusuna da toxundu:** "Onun əfvlə bağlı ilk mövqe ilə tanış oldum. Tam olmasa da, onun mövqeyində müəyyən qədər pozitiv münasibət özünü ifadə etdi. Bunu nədən Əli Kərimli davam etdirmədi? Bu mənə çox təəccüblü gəlir. Çıxardığım nəticə ondan ibarətdir ki, Əli Kərimlinin dedikləri iradəsinin ifadəsi deyil. Görünən odur ki, ona komanda verilə bilər ki, sən bu cür danışmalısan, yəni pozitiv fikirlərdən uzaq ol, daha radikal mövqe nümayiş etdir, əvvəlki mövqeyində dayan, sərt, barışmaz, qərəzli mövqe nümayiş etdir. Hər kəs istər-istəməz bu cür nəticə çıxarar. Çünki onun ilk açıqlaması ilə sonrakılar arasında ciddi fərqlər açıq şəkildə özünü göstərdi. Buna, sadəcə, təəssüf edirəm. Cəmiyyətin mütləq əksəriyyəti prezidentin apardığı islahatları yüksək qiymətləndirir".

**❑ Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# Əli Kərimliyə xarici pasport verilə bilər

## Novella Cəfəroğlu: "Niyə də Əli Kərimlinin xarici pasportu problemi həll olunmasın?"
## Natiq Miri: "Əli Kərimli xaricə getsə, guya nə olacaq ki..."

**AXCP sədri Əli Kərimli 2006-cı ildən xarici pasport ala bilmir. Bu imtina Ə.Kərimli barəsində 1994-cü ilin sentyabrında açılmış cinayət işinin ləğv olunmaması ilə əsaslandırılır.**

"Yeni Müsavat" xəbər verir ki, AXCP sədri bu günlərdə jurnalist Sevinc Osmanqızına verdiyi videomüsahibəsində 13 ildir xarici pasport ala bilməməsindən danışıb.

Zaman-zaman onun xarici pasport almaq şansları yaranıb, lakin hakimiyyətə qarşı barışmaz mövqedə dayanması, bəzi hallarda qırmızı xətləri gözləməməsi bu fürsəti dəyərləndirmək imkanından onu məhrum edib.

Məsələn, 2016-cı ildə aprel döyüşlərində AXCP sədri Azərbaycan prezidentinə və müdafiə nazirinə dəstək çıxışı ilə yadda qalmışdı, amma çox çəkmədi ki, sərt tənqid ampluasına qayıtdı, hakimiyyətin ona münasibətini dəyişməyə əl yeri qoymadı.

Ən böyük əfv fərmanı kimi qiymətləndirilən prezidentin sonuncu addımına da Ə.Kərimli ilk dəqiqələrdə pozitiv aspektdən reaksiya versə də, sonra 52 siyasi



Novella Cəfəroğlu



Natiq Miri

məhbusun azad olunması qərarını yerə "vurmağa" başladı. Bu, AXCP sədrinin xarici pasport almaq, partiya qərargahına sahiblənmək kimi imkanlarını məhdudlaşdırır.

Halbuki ölkədə gedən sosial dəyişikliklərin ardınca siyasi müstəvidə əfv fərmanı ilə başladılmış islahatların davamı olaraq Ə.Kərimliyə xarici pasport verilməsi də istisna deyil. Yetər ki, bunun üçün hakimiyyətin atdığı müsbət addımları da "baltalamayasan", xoş görülü olasan.

**Dilarə Əliyeva adına Azərbaycan Qadın Hüquqlarını Müdafiə Cəmiyyətinin sədri, hüquq müdafiəçisi Novella Cəfəroğlu "Yeni Müsavat"a açıqlamasında Ə.Kərimlinin xarici pasport probleminin həll olunmasını istisna etmir. Onun sözlərinə görə, AXCP sədrinin iki müavini azadlığa buraxılıb və bunun davamı gələ bilər:** "Həm Fuad Qəhrəmanlının, həm Gözəl Bayramlının əfv edilməsi böyük hadisədir. Niyə də Əli Kərimlinin xarici pasportu problemi həll olunmasın?

Ümumiyyətlə, islahatlar olacaq, hələ çox şey dəyişəcək. Böyük əfv ilk dəfədir və tənqidlər də olacaq, qoy olsun, hamı ailəsinin yanındadır".

**Azərbaycan Milli Strateji Tədqiqatlar Mərkəzinin sədri, politoloq Natiq Miri hesab edir ki, islahatların səmərəliliyi üçün proses davamlı və sistematik olmalıdır:** "İstər iqtisadi, istər siyasi yöndə atılan addımlar sistematik xarakter daşımasa, biz tutarlı və ciddi nəticələr əldə edə bilməyəcəyik. Spontan olaraq, zaman-zaman atılan addımlarla sistematik dəyişiklik mümkün deyil. Ona görə də Əli Kərimlinin pasport problemi nəinki həllini tapa bilər, tapmalıdır. Ona pasportun verilməməsi anlamlı deyil. Axı ona pasportunu qaytarmamaq hakimiyyətə nə qazandırır? Əli Kərimli xaricə getsə guya nə olacaq ki? Bu, mahiyyət etibari ilə heç nə dəyişməyəcək".

**N.Mirinin fikrincə, Əli Kərimli ölkəyə fundamental dəyişikliklər gətirə biləcək lider deyil:** "O, bu xüsusiyyəti çoxdan itirib. Əli Kərimlinin edəcəyi bir iş yoxdur. O, yalnız iqtidar içindəki bir şəbəkədən və xaricdən müəyyən qrant almaqla fəaliyyətdir. Bu nöqteyi-nəzərdən siyasi azadlıqlar təmin olunmalıdır, iqtisadi-siyasi islahatlar kompleks tədbirlər kimi həyata keçirilməlidir".

**❑ Emil SALAMOĞLU, "Yeni Müsavat"**

# Müxalifət Əli İnsanova qoşulmayacaq

## Tanınmış partiya sədrlərindən və YAP-dan sabiq səhiyyə nazirinin bəyanatına reaksiya

**Prezident İlham Əliyevin əfv sərəncamı ilə azadlığa buraxılan keçmiş səhiyyə naziri Əli İnsanov jurnalistlərə ilk açıqlamasında siyasətlə məşğul olacağını bəyan etdi. Müxalifətə qoşulub-qoşulmayacağı barədə suala cavabında isə deyib ki, "hər şey Allahın əlindədir, hələ məlum deyil müxalifət mənə qoşulacaq, yoxsa mən müxalifətə".**

Bəs müxalifətin nə zamansa Əli İnsanova qoşulması mümkünmü?

**Ümid Partiyasının sədri İqbal Ağazadə "Yeni Müsavat"a bildirdi ki, Əli İnsanov hazırda fərddir və hüquqi şəxs olan siyasi partiyanın ona qoşulması mümkün deyil:** "Müxalif partiya olaraq Azərbaycan siyasətində demokratikləşmə, barış, dialoq üçün mübarizə aparırıq. Azərbaycanın gələcəyini barışda və dialoqda görürük. Kim demokratikləşmə, barış və dialoq üçün mübarizə aparacaqsa, kim vətəndaşların rifah halının yaxşılaşdırılması, demokratik cəmiyyət quruculuğu istiqamətində fəaliyyət göstərəcəksə, biz hamısı ilə əməkdaşlığa hazırıq. Biz Əli İnsanov da daxil olmaqla, bütün Azərbaycan seçicilərinin səsini qazanmağa, siyasətimizin üstün siyasət olduğunu sübut edərək səsini almağa çalışırıq. Əli İnsanov da Azərbaycan vətəndaşlarından biridir, çox istərdik ki, bizim siyasi fəaliyyətimiz Əli İnsanov tərəfindən də bəyənilsin, dəstəklənsin və o da bizim xəttin doğru olduğunu qəbul etsin. Əli İnsanov siyasi partiya rəhbəri deyil, fərddir. Bir siyasi partiyanın hər hansı bir fərdə qoşulması, birləşməsi mümkünsüz bir şeydir. Ona görə də hesab edirəm ki, bu məsələdə Ümid Partiyası ilə hər hansı təmasdan, birlikdən danışmaq bir az siyasətin məntiqinə ziddir. Əli İnsanov partiya yaradarsa, partiyasını cəmiyyətdə tanıtdırarsa, ideya və məqsədlərinə baxarıq, görək, bizim məqsəd və ideyalarımızla üst-üstə düşür, yoxsa düşmür. Əli İnsanov bugünkü statusunda çox arzu edərdik ki, bizə səs verən seçicilərdən biri olsun. Amma bugünkü durumda Ümid Partiyası ilə Əli İnsanovun birliyi barədə danışmaq bir qədər siyasətin məntiqindən uzaqdır".

**VİP sədri Əli Əliyev bildirdi ki, Əli İnsanovun verdiyi bəyanat onun gümrah və mübarizə əzmində olduğunu göstərdi:** "İçəridə olduğu dövrdə dəyanət və əyilməzlik nümayiş etdirib, bunu demək lazımdır. İnanmıram ki, o, müxalifət düşərgəsi barədə səhih məlumatlara malikdir. Ona görə bir qədər gözləmək lazımdır. Yəqin ki, bir müddətdən sonra onun da mövqeyində dəyişiklik olacaq. Zamana ehtiyacı var. Eyni zamanda axı Əli müəllim müxalifətə birləşəcəyini də istisna etməyib. Bizim birləşməyimizə gəlincə, inanmıram ki, kiminsə rəhbərliyi ilə koalisiyada ola bilərik. Bərabərhüquqlu əməkdaşlıq müzakirə edilə bilər".

**ADP sədri Sərdar Cəlaloğlu isə qeyd etdi ki, Əli İnsanovun siyasi mübarizəsinə müxalifət də dəstək olmalıdır:** "Düzdür, o da korrupsioner olub, vəzifəsinə görə çoxlu pul qazanıb. Lakin insanların günahlarının yuyulma məsələsi var. Bir insan günahına ekvivalent əməl edərsə, həmin əməl günahı yuyur. O, artıq günahının cəzasını çəkib və bundan sonra YAP-ın apardığı siyasətdə iştirak etməyəcəksə, xalqa qarşı hər hansı yanlış addım atmayacaqsa, Əli İnsanovla bizim heç bir fərqimiz yoxdur. Əgər aktiv şəkildə siyasi mübarizə aparacaqsa, onunla əməkdaşlıq etməliyik. Artıq Azərbaycanda xalq əvvəlki illərdən fərqli olaraq siyasiləşir. İnsanov da bu prosesin başlandığı dövrdə çıxıb və qatılacağı təqdirdə ciddi qatqıları da ola bilər. Əli İnsanov öz partiyasını yaradacaqsa, bu başqa məsələ, əməkdaşlıq etməyə borcluyuq".

**20-dən yuxarı müxalif partiyanın təmsil olunduğu Azərbaycan Xalq Hərəkatının İdarə Heyətinin üzvü İsgəndər Həmidov müxalifətin Əli İnsanova qoşulmasına inanmadığını dedi:** "Azərbaycan Milliyyətçi Demokrat Partiyasının lideri İsgəndər Həmidov olaraq Əli İnsanovu azad olunması münasibətilə təbrik edirəm. Mən inanmıram ki, illərdir demokratiya uğrunda mübarizə aparan oturuşmuş müxalifət partiyaları indi kiməsə qoşulsunlar. Kiminsə mövqeyini qəbul edə bilərlər, ancaq qoşulmazlar. O ki qaldı AXH-nin Əli İnsanovla münasibətlərinə, AXH tək İsgəndər Həmidovdan ibarət deyil ki, mən bu məsələ barədə konkret fikir bildirim. Bu məsələni ancaq biz İdarə Heyətində müzakirə etdikdən və qərar qəbul etdikdən sonra dəqiqləşdirə bilərik".

**Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbər:** "Mən onun açıqlamasını dinlədim. Həqiqətən də bu yaşda insanın uzun müddət həbsdə olduqdan sonra belə mövqe ortaya qoya bilməsi təqdirəlayiqdir. Bundan sonra nə baş verəcəyi isə məncə, həm Azərbaycan müxalifətindən, həm də Əli İnsanovdan çox asılıdır. Mənə belə gəlir, ilk növbədə Əli İnsanov səhv etməməlidir. Yəni onun aktiv hərəkəti bir tərəfə, səhv etməyib dursa belə, məncə, hadisələrin istədiyi istiqamətdə inkişafının şahidi olacaq. İndi demokratik müxalifətin əsas problemi ilk növbədə birləşmək məsələsidir. Heç kim bu birləşmənin baş tutmasına əngəl yaradacaq açıqlamalar verməməlidir. Hamı bilir ki, əsas məsələ müxalifətin bir araya gəlməsidir. Qaldı kimin ətrafında birləşmək məsələsinə, onu zaman göstərəcək. İlk növbədə birləşmək istiqamətində kimlər addım atırsa, Azərbaycan cəmiyyətində o, müsbət qarşılanacaq. Bunun baş tutmasına ancaq Əli İnsanovun özü mane ola bilər. Özü mane olmasa, böyük ehtimalla bu, baş tutacaq. Mən Əli İnsanov və bütün azadlığa qovuşan məhbusları, onların ailə üzvlərini təbrik edirəm. Onların azadlığa çıxması bizi də sevindirdi".

**Hakim Yeni Azərbaycan Partiyasından da Əli İnsanovun həbsdən çıxanda verdiyi bəyanata münasibət bildirilib. YAP-çı deputat Aydın Mirzəzadə modern.az-a deyib ki, Əli İnsanov da artıq Azərbaycanın müstəqil vətəndaşıdır. Dövlətimiz hüquqi, demokratik dövlət olduğundan konstitusiyamızda qeyd edilən vətəndaş hüquqlarından o da istifadə edə bilər:** "İnsanov da daxil olmaqla, hər bir Azərbaycan vətəndaşı qanunazidd olmayan formada siyasətlə, ictimai fəaliyyətlə məşğul ola, öz mövqeyini bildirə bilər. Əli İnsanova əfv sərəncamından irəli gələn çıxarışın verilməsi prosesində mən də iştirak etdim. Onu ötən əsrin 90-cı illərindən tanıyıram. Bununla belə, onun ilk açıqlamaları göstərir ki, Əli İnsanovun müəyyən müddət həbsxanada qalması, cəmiyyətdən təcrid vəziyyətində yaşaması öz təsirini göstərib. Azərbaycan onun həbs edildiyi dövrdəki Azərbaycan deyil, bu illər ərzində güclü inkişaf gedib, demokratiya dərinləşib, insan hüquq və azadlıqlarının təmin edilməsində daha böyük işlər görülüb. Azərbaycan bu gün öz inkişafı ilə dünyanın diqqətini cəlb edən ölkədir. Əhalinin böyük əksəriyyəti prezident İlham Əliyevin daxili və xarici siyasətini dəstəkləyir. Ortadakı bu reallığı danmaq mümkün deyil. İndiki məqamda kiminsə fərqli mövqe tutması, hansısa çağırışlar etməsi onun seçimidir. Azərbaycan ilk növbədə bu gün cənab prezidentin apardığı siyasət nəticəsində yüksək inkişafa nail olub".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**


İqbal Ağazadə


Əli Əliyev


Sərdar Cəlaloğlu


Sülhəddin Əkbər

# "Fürer"in dönüşü


**Xalid KAZIMLI**

**Əli İnsanova prinsipial, inadkar adam deyirlər. Görünür ki, elədir. Şübhə yoxdur. Zatən onu 25 il öncədən tanıyırıq, böyük vəzifədə olanda da görmüşük, dəmir qəfəsə salınıb mühakimə ediləndə də, həbsxanada cəza çəkərkən də.**

İndi o, tamam fərqli bir keyfiyyətdə yenidən gözümüzün qarşısındadır.

Əli İnsanovun öz birinci cəza müddətini çəkərkən əfv edilməməsinin, hətta cəzasını günə-gün çəkdikdən sonra azadlığa buraxılmamasının elə bir sirri yox idi. Onun həbsdən çıxdıqdan sonra hansı mövqedə olacağı, hakimiyyətə, cəmiyyətə təhlükə törədib-törətməyəcəyi öncədən bilinirdi.

İnsanovun bugünkü açıqlamaları göstərir ki, mövcud iqtidar komandasının narahat olmasına əsaslar varmış.

Əli İnsanov islaholunmaz karyeristdir. 13 ildən artıq çəkən məhbəs həyatı onu dəyişməyib, hətta daha da möhkəmlədib.

O, hələ ölkənin ən önəmli nazirliklərindən birinə rəhbərlik etdiyi vaxt öz ambisiyaları ilə seçilirdi. Dövlət başçısının ona etimadı böyük idi deyə Əli İnsanov ölkənin ən ötkəm rəhbərlərindən biriydi. Ötkəmliyinə, sərtliyinə və amansızlığına görə onu saray dairələrində "Fürer" adlandırırmışlar.

Bir ara onun parlamentin sədri postuna iddiası barədə yazılar intensivləşmişdi və əsassız deyildi. Ancaq o, bu müstəvidə hakim partiyanın - YAP-ın cəfakeş qurucusu, nazir həmkarı Əl Nağıyevlə toqquşdu. Rəsul Quliyevin istefaya göndərilməsindən sonra Nağıyev də parlament sədri olmaq istəyirdi.

Əli adlı iki nüfuzlu nazirinin bir post uğrunda media savaşına girməsinin yaxşı nəticələr verməyəcəyini görən mərhum prezident Heydər Əliyev Ermənistan klanıyla Naxçıvan klanını bir arada tutmaq üçün parlamentin spikeri postuna neytral bir şəxsi - hüquq professoru Murtuz Ələsgərovu məsləhət bildi. Məsələ həll olundu.

Ancaq Əli İnsanovun hakimiyyət ehtirası sönmədi. Elə Əli Nağıyev də bu şövqü nazir postundan götürülənə qədər qəlbində daşıdı. Onların hər ikisi H.Əliyevdən sonra məhz özlərini hakimiyyətdə birinci şəxs olaraq görürdülər.

Fəqət taleyin gərdişi onlardan birini fəxri sürgünə, digərini dörd divar arasına göndərdi. Əli Nağıyev daha tədbirli davrandı, taleyinə boyun əydi və səfir postuna razılaşdı.

Əli İnsanov isə səfir olmağa, istefaya getməyə razılaşmadı, 2005-ci ilin parlament seçkilərində revanş götürmək (bu, rəsmi şəkildə sənədləşdirilməyib), hakimiyyətə güc göstərmək istədi, nəticədə düz on üç il müddətinə cəmiyyətdən təcrid olunmuş şəkildə yaşadı.

Həbsxanaya düşəndən sonra o, öz siyasi mövqeyində xeyli korrektələr etdi, vaxtilə yamanladığı, hətta təhqir etdiyi şəxslərdən, müxalifət liderlərindən, eləcə də jurnalistlərdən üzr istədi. Bu, əslində çox hiyləgər ve uzaqgörən addım idi.

Sonrakı hadisələr də göstərdi ki, İnsanovun üzr istədiyi adamlar onu bağışlayıblar, sabiq nazirin vaxtilə onlara ölüm hökmü tələb etməsini ya unudublar, ya da artıq aktual saymırlar. Hər halda, onlar sonrakı çıxış və açıqlamalarında Əli İnsanova azadlıq tələb edir, onun müdafiəsində dururdular.

Qəribəydi, Əli İnsanovun keçmiş komanda yoldaşları ondan gen gəzdiyi, zərurət yarandıqda onu pislədikləri halda, sabiq nazirlə kəskin rəqabətdə olmuş şəxslər onun müdafiəçisi olmuşdular.

Artıq Əli İnsanov azadlıqdadır və onlara - ömürlərini müxalifətdə, məhrumiyyətlər içində keçirmiş adamlara o qədər də ehtiyacı yoxdur.

İndi onun ətrafında başqa qüvvələr təmərküzləşəcək. Bunlar vaxtilə yaxşı vəzifələr tutmuş, sonradan müxtəlif səbəblərdən vəzifələrindən çıxarılmış, bizneslərini itirmiş, hakimiyyətin, yüksək vəzifələrin, bol sərvətin dadını bilən adamlardır. Əli İnsanov onların lideri olacaq və sıravi müxalifləri öz ətrafında "altılıq" kimi görmək istəyəcək.

Əslində Əli İnsanovun indi söykənmək istədiyi klana onun özü qədər ziyan vuran ikinci bir şəxs olmayıb. Bu klanın sökülməsi, ilməsinin qaçması məhz 2005-ci ildən sonra qaçdı. Ona qədər həmin klanın üzvləri hakimiyyət komandasında az qala yarı-yarıya təmsil olunurdular. Bu sırada nazirlərdən tutmuş MİS rəislərinə qədər hər ranqdan olan minlərlə vəzifə adamları vardı. 2005-ci ildən sonra isə təbii olaraq seyrəldilmə işləri aparıldı. Nəticədə xeyli adam öz əvvəlki büsatından, tərəqqisindən məhrum oldu.

İndi onlar Əli İnsanovun ətrafında birləşərək ikinci avantüraya gedəcəklərmi - bu bir qədər sonranın söhbətidir. Görəcəyik.

Əli İnsanovu müdafiə edən müxalifətçilərin isə umsuq olacağını bəri başdan demək mümkündür. O, demokrat deyil, olmayıb və olmayacaq. Onun üçün başlıcası hakimiyyətdir. O, bu istiqamətdə fəaliyyət göstərəcək və bütün müxalifətin lideri olmaq istəyəcək.



# Qaldığımız yer

Zamin HACI
zaminhaci@gmail.com

“Zira indi işləməyib məqsədinizi apara bilməzsiniz. Onda sizin hakimləriniz hər bir məşrutə və hürriyyətinizi əlinizdən alıb uca səs ilə küll aləmə deyəcəklər ki: Biz hürriyyət verdik, lakin millət hazır olmadığı üçün idarə edə bilmədi...”

*(M.Ə.Rəsulzadə, 1906-cı il, 8 avqust, “İrşad” qəzeti)*

**Əgər nəzərə alsaq ki, bu hakimiyyətin dövründə heç zaman birdən-birə 50 nəfər siyasi dustaq azadlığa buraxılmayıbdır, son əfv fərmanı doğrudan da inqilabi bir addım sayıla bilər. Nə cəmiyyət, nə müxalifət üçün yox, ilk növbədə iqtidarın özü üçün. Axı o adamlar bir günün, bir ayın, heç bir ilin də dustaqları deyildilər, iqtidar onları türməyə salmaq üçün çox zaman sərf etmişdi. Bir günün içində isə azad elədi. Deməli, burada ən çox “xərcə düşən” hakimiyyətdir və biz bunu qiymətləndiririk.**

O cümlədən, o adamların həbs edilməsi üçün hakim düşərgədə, onun şərti olaraq “qırğılar qanadı” adlandıra biləcəyimiz hissəsində xeyli şəxslərin hazırda diş qıcırdadıb narazı qaldığını da düşünəndə, təsəvvür edəndə, fərmanın əhəmiyyəti artır. Diş şaqqıldadanlar isə and içərəm ki, var. Biz xalqımızı mərhəmətli adlandıra bilərik, ancaq onun içində xeyli amansız, qəddar, qaniçən tiplər də var. Hacıbala müəllim demişkən, əmin olun ki, var.

Təbii, mən demirəm bu saat hamımız döşənək və minnətdarlıq edək. Ancaq həqiqəti yazmağa nə sözümüz? Əfv günü mən bir-iki müxalif sayta xüsusi baxdım. Birində fərmanı belə başlıqla vermişdilər: “Bir neçə siyasi məhbus əfv edildi”. Sən demə, bizim dildə 50 nəfər artıq “bir neçə” sayılır. Yazını yazarkən yenə baxdım və sevindim ki, heç olmazsa sonradan bu mənasız xırdalayacı hərəkəti düzəldib “50 nəfər əfv edildi” yazıblar. Yenə qeyd edirəm ki, böyüdücü hərəkətlər ummuram, buna heç ehtiyac da yoxdur, necə deyərlər, gərək o adamlar ümumən tutulmazdı, ancaq kiçildici söhbətlərin mənası nədir?

Hələ əfv edilən siyasi dustaqlardan biri görün nə deyir: “Qaldığımız yerdən davam edəcəyik”. Qardaş, harda qalmışdın ki? Azərbaycan siyasət mühitindən, müxalifətindən, cəmiyyətindən xəbərsiz adam olsa, zənn edər ki, bu dostumuz, yalan olmasın, spartalıların komandiri Leonid imiş, Fermopil keçidində 300 spartalı ilə dayanıbmış. Ya da nə bilim, Nelson Mandela imiş, zəncilərin hüquqları uğrunda apardığı mübarizə yarımçıq qalıbmış, indi çıxıb davam edəcəkmiş. Bir az da avtobusdakı hadisə haqda saqqallı lətifəni xatırladır: “Mənə yer verin, yoxsa dünənki kimi olacaq”.

Qaldı keçmiş səhiyyə naziri, onun libası camaatın diqqətini çox çəkib, hətta qiymətini hesablayanlar var. Elə mənə də Əli müəllimin sarı rəngə üstünlük verməsi maraqlı gəldi, çünki 2005-ci ildə onu tutanda da iqtidar çoxlu sarı boya nümayiş etdirmişdi: qızıl külçələr, nazirin olduğu iddia edilən villanın sarı-qızılı interyeri, mebelləri... Bəlkə də Əli müəllim tərəfdarlarına “Sarıdan hələ qalır, uzağa getməyin” işarəsi verirdi? Nə biləsən. Şəxsən mən arzu edərdim, Əli müəllim də “qaldığı yerdən” davam etsin, məsələn, həyatının yerdə qalan hissəsini də YAP quruculuğuna həsr etsin. Yoxsa “hələ bilmək olmaz, bəlkə müxalifət mənə birləşdi” söhbəti Mahsun Qırmızıgülün “Sarı-sarı, kimin yarı” mahnısını yadımıza saldı.

Bir də camaatın “bunun ardı gəlsin” deyən hissəsi var. Əlbəttə. Ardı gəlsə yaxşı olar. Yoxsa yazıq Mehman müəllim (Turan agentliyinin şefi) 16 ildir “bu yaxında islahat olacaq” deyə-deyə az qala internet memə çevrilmişdi. Və deyəsən, islahat Mehman müəllim yorulub-bezəndə, qəfildən oldu. Ancaq zarafat bir yana, hakimiyyət daha nələr edə bilər ki? Misal üçün, arzu edirik məhkəmə-hüquq sistemində islahat olsun. Buna potensialımız varmı? Bir nəfərin iradəsi ilə bunu etmək olarmı? Çətin məsələdir. Vəkil İsaxan Aşurov sağlığında mənə bir əhvalat danışmışdı. Deyir, bir gün gürcü prezidenti Şevardnadze Kutaisiyə gəlir, yerli hakimiyyət qurumları ilə görüşəndə məhkəmə hakimi onun salamını almır. Hakim deyibmiş ki, sən korrupsiyaçısan, mən sənə əlimi uzatmaram. Bəs bizdə nə qədər belə saf hüquqşünas, hakim, vəkil, prokuror, polis tapa bilərsiniz? Ayrılıqda götürəndə hamımız yaxşı adamıq, nəsə bir yerə yığılanda zayımız çıxır. O cümlədən, bu dəqiqə məndən siyahı istəsən, rüşvət almayan, yalan yazmayan jurnalist saymalı olsam, əlimin biri bəs eləyəcək. Güc-bəla ilə.

Bu yaxında Rusiyada biabırçı bir adam aşkara çıxmışdı. Volqoqrad vilayət dumasının hakim partiyadan olan deputatı az pensiya alanları “alkaş və müftəxor” adlandırmışdı, guya camaatın iqtisadi durumu ağırdırsa, bunda ancaq özləri suçlu imiş. Ritorika necə tanışdır, elə deyilmi? Sanki Hadı Rəcəbli və ya onun başqa həmkarı növbəti qalmaqallı açıqlamasını verib. Məsələ ondadır ki, bu adam elə azərbaycanlı idi, Həsən Nəbiyev adında.

İndi lap demokratiyanın ipini aç burax, seçkiləri düzgün keçirt (təbii, Həsən müəllimi də Putinin partiyası təyin etmişdi, burada mövzu bu deyil), qarantiya yoxdur ki, bizdə düzgün seçkidə yaranan deputatxana “Hadı Rəcəbli və Həsən Nəbiyev”dən ibarət olmayacaq.

Ancaq mənim şəxsi narahatlıq və proqnozlarımın xalqın seçib-seçilmək hüququnun təmin olunmasına dəxli yoxdur. Bunu da yazmaq borcumdur. İmkan verək xalq da “səhv” eləsin.



# Krım və Qarabağ reallıqları - Bakı üçün yeni şans

## Avropa Birliyindən işğalçı siyasətlə bağlı sərt mövqe gəldi; Rusiyanın işğal ortağı, Krımı Rusiya ərazisi sayan Ermənistan da bu “lütfə” layiq görülə bilər, çünki...

**Bu gün - martın 19-da Ukraynanın Krım vilayəti və Sevastopol şəhərinin rəsmən Rusiyaya birləşdirilməsinin 5 ili tamamlanır (İşğaldan sonra “referendum” martın 16-da keçirilib, prezident Putin isə martın 19-da birləşmə haqda sərəncam imzalayıb). Martın 18-də Avropa Birliyi (AB) Krımın anneksiyanın qəbuledilməzliyi barədə prinsipial mövqeyini bir daha bəyan edib.**

“Yeni Müsavat” xəbər verir ki, qurumun xarici siyasət məsələləri üzrə ali komissarı Federika Moqerinin adından yayılan bəyanatda AB-nin Ukraynanın suverenliyi və ərazi bütövlüyünə sadiqliyi növbəti dəfə əksini tapıb.

“Krımın ilhaqı beynəlxalq təhlükəsizliyə birbaşa təhdiddir və özündə dünya düzəni üçün ciddi təhlükələr daşıyır”, - deyə yazılı bəyanatda deyilir. Sənəddə həmçinin əksər ölkələrin bu ilhaqı tanımadığı, ilhaqdan sonra yarımadada insan haqlarının vəziyyətinin pisləşdiyi, o sırada beynəlxalq humanitar hüquqa zidd olaraq, Krım sakinlərinin Rusiya silahlı qüvvələrində hərbi xidmət keçməyə məcbur edildiyi də vurğulanır.

Eyni mövqeni təbii ki, ABŞ da bölüşür. Artıq 5 ildir AB və ABŞ qanunsuz işğala etiraz olaraq, Rusiyaya qarşı maliyyə-iqtisadi və texnoloji sanksiyalar tətbiq edir. Sanksiyalar ilbəil daha da sərtləşir.

*****

Belə görünür, 2008-ci ildə Abxaziya və Cənubi Osetiyanı rahatlıqla işğal edib onların “müstəqilliyini” tanıyan, ardınca separatçı bölgələri özünün marionetinə çevirmək və orada böyük hərbi qüvvə saxlamaq üçün “qanuni əsas” yaradan Rusiya Krımla bağlı belə kəskin reaksiya gözləmirmiş. Odur ki, Rusiyanın bu ilhaqla nə qazandığı mühüm suallardan biridir.

**Bu xüsusda “Atlas” araşdırmalar mərkəzinin şərhi diqqət çəkir:** “Kreml Krımı işğal etməklə bütün ”qırmızı cizgi"ləri aşdı. Rusiyanın Krımı işğal etməkdə əsas arqumenti bu idi ki, Krım həmişə Rusiyanın tərkibində olub. Sanki tarixdə Krım xanlığı olmayıb və ya yarımada tatarların tarixi vətəni deyil. Bu baxımdan Rusiyanın yaxın müttəfiqi Belarus prezidenti Aleksandr Lukaşenkonun reaksiyası maraqlı idi: “Əgər Moskvanın Krımı Rusiyaya qatması məntiqini qəbul etsək, onda gərək Rusiyanın yarısı monqol-tatarlara məxsus olsun”. Lukaşenko bunu həm də ona görə söyləyirdi ki, bir gün Moskvanın Belarus torpaqlarına da gözü düşə bilər.

V.Putin Krımın ilhaqına belə haqq qazandırır: “Tarixi ədalət bərqərar olunub”. Ancaq Putinin bu qərarı beynəlxalq aləmə, bölgəyə və elə Rusiyanın özünə aşağıdakı çətinliklər gətirib: birincisi, 2014-cü ilə qədər qardaş adlandırılan Rusiya-Ukrayna münasibətləri gərginləşib və bundan sonra Ukraynada prezident dəyişsə belə, Krımın işğalına görə Kiyevin Moskva ilə əvvəlki isti münasibətlərini bərpa edəcəyi problematikdir.

İkincisi, Qərbin Rusiyaya qarşı sanksiyaları Krımın işğalı davam etdikcə ortadan qaldırılmayacaq. Aydındır ki, Moskva heç bir halda Krımı geri qaytarmayacaq. Demək, sanksiyalar da davam edəcək. Sanksiyaların davamı isə Rusiyanı Qərblə normal münasibətlərdən məhrum edib və Rusiya iqtisadiyyatına mənfi təsir edir.

Üçüncüsü, Krımın ilhaqı olmasaydı, bu gün beynəlxalq terrorizmə qarşı mübarizədə vahid mərkəz formalaşa bilərdi, ABŞ Rusiya ilə indiki qədər münaqişə içərisində olmayacaqdı, iki dövlət “soyuq müharibə” illərində olduğu kimi bir-birini uzaq mənzilli raketlərdə hədələməzdi. Krımın işğalı onu da sübut etdi ki, Rusiyanın siyasətində separatizmə dəstək davam edəcək".

*****

Buna biz az öncə (5-6 mart) Moskvada Kremlin rüsxəti ilə yaradıldığı şübhə doğurmayan “Lazerev klubu”nun iclasına Qarabağdakı separatçı rejimin “iqtisadiyyat naziri” Levan Qriqoryanın iştirak etməsi ilə bir daha əyani şahidlik elədik.

Ola bilsin, bir səbəb də odur ki, Azərbaycan Ukraynanın ərazi bütövlüyü məsələsində prinsipialdır, Krımı Ukraynanın ərazisi sayır və BMT səsvermələrində dünya ölkələri ilə, Qərblə eyni mövqe sərgiləyir. Kremlin Krımı dünyaya Rusiyanın ərazisi kimi tanıtdırmaq siyasəti isə 5 ildə iflasa uğrayıb. O da var ki, Krımı Rusiya ərazisi kimi göstərən xəritələr və ya Krım istehsalı olan mallar zaman-zaman Azərbaycanda da peyda olur. Ancaq Azərbaycanın müvafiq orqanları bu təxribatların qarşısını alır.

Bəs Krımın işğalı konkret olaraq Azərbaycana Dağlıq Qarabağ ixtilafının həll perspektivi baxımından nə verdi?

Əvvəla, dünya birliyi, onun aparıcı gücü olan Qərb sanki ayıldı və sərhədlərin zorla dəyişdirilməsinin və yenidən müəyyənləşməsini qlobal sülh üçün hansı böyük fəsadlar törədəcəyini fərq elədi. O səbəbə dövlətlərin ərazi bütövlüyü məsələsi, Helsinki Yekin Aktının (1973) əsas müddəası olan ərazi bütövlüyü prinsipi bütün ciddiliyə ilə gündəmə gəldi.

Diqqətçəkəndir ki, məhz Krımın işğalından sonra Avropa Parlamentinin qəbul elədiyi qətnamələrdə və digər sənədlərdə, NATO sammitlərində (Brüssel və s.) qəbul olunan yekun bəyannamələrdə Azərbaycanın da daxil olduğu “Şərq Tərəfdaşlığı” ölkələrinin ərazi bütövlüyünə hörmət birmənalı şəkildə əksini tapıb. Keçən həftə isə ABŞ Dövlət Departamentinin dünyada insan haqlarının 2018-ci ildəki vəziyyətinə dair yaydığı hesabatda Ermənistanı işğalçı adlandıran bənd yer alıb. Orada deyilir: “Separatçılar Ermənistanın dəstəyi ilə Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin əksər hissəsini və ona bitişik 7 rayonu nəzarətdə saxlamaqda davam edirlər”.

İkincisi, işğalçı Ermənistan Krımdakı saxta referendumu tanımaqla Rusiyanın ilhaqını da tanıyıb və Rusiyanın yanında yer alıb. Bununla da özünü beynəlxalq hüquqa, dünya birliyi və beynəlxalq rəyə və iradəyə qarşı qoyub.

Yeri gəlmişkən, BMT-də Krımla bağlı hətta humanitar xarakterli sənədlərin səsverməsi zamanı Ermənistan Azərbaycandan fərqli olaraq, həmişə Rusiyanın mövqeyini müdafiə edib və Qərbə qarşı çıxıb. Ukraynanın ərazi bütövlüyü əleyhinə səs verib. Bu da faktiki, Rusiya ilə işğal ortağı olan Ermənistan haqda neqativ rəyi möhkəmlədib.

Ötən həftə isə İrəvanda Krımı Rusiyanın tərkib hissəsi olaraq təsdiqləyən “Krım həftəsi” keçirilib. Beləcə, Qarabağı işğal altında saxlayan Ermənistan Rusiya kimi dünya düzəninə, beynəlxalq hüquqa meydan oxumaqda davam edir. Görəsən, Qərb bu reallığa da, nəhayət, sərt təpki verəcəkmi?..

❑ **Siyasət şöbəsi, “Yeni Müsavat”**

# İranla Amerika arasında "savaş meydanı" - Bağdad

## Tehran və Vaşinqton İraq uğrunda qollarını çırmayıb - qalib kim olacaq?

**İraq İran və ABŞ arasındakı rəqabətin yeni ünvanına çevrilib. Bu, özünü İran prezidenti Həsən Ruhaninin martın 13-də İraqa səfəri zamanı da göstərdi. Baxmayaraq ki, cənab Ruhaninin İraqa səfəri İran-İraq münasibətlərinin daha da yaxşılaşması, əlaqələrin genişləndirilməsi məqsədi daşıyırdı.**

Ancaq Bağdada yola düşən H.Ruhani hələ Tehrabad hava limanında ABŞ prezidentinə mesaj göndərdi. İran prezidenti ABŞ-ın ünvanına tənqidi fikirlər səsləndirdi, bəzi ölkələrin işğalçılıq fəaliyyətləri yürütdüyü, buna görə də indi İraqa gecə vaxtı xəlvət gəldiyini qeyd etdi. Ruhani ötən ilin dekabrında ABŞ prezidentinin İraqa səfərini qəsd edirdi. Həmin vaxt təhlükəsizlik səbəbi ilə Trampın təyyarəsi Bağdada işıqlarını söndürərək enmişdi. Bu faktı bir neçə gün əvvəl ABŞ prezidenti özü də təəssüflə qeyd etmişdi. Hətta bu səfər zamanı Tramp İraq rəhbərliyi ilə də görüşməmişdi.

Ancaq ABŞ prezidentindən fərqli olaraq İran prezidenti İraqa çox rahat səfər etdi. İraqda 3 gün qaldı, Bağdaddan sonra ölkənin dini "paytaxtı" Nəcəfə səfər etdi və burada İraqın qeyri-rəsmi söz sahibi Ayətullah Seyid Əli Sistani ilə görüşdü.

Yeri gəlmişkən, səfər zamanı viza rüsumlarının götürülməsi, eləcə də ticarət, iqtisadiyyat sahəsində bir sıra anlaşmalar imzalanıb, iki ölkə arasında ticarətdə milli valyutalardan istifadə olunması barədə razılaşma əldə olunub.

Maraqlıdır ki, Ruhaninin səfəri İraqda siyasi-strateji sahədə də ciddi hərəkətlilik yaradıb. Ölkənin nüfuzlu siyasətçilərinin bir qismi ABŞ ordusunun İraqdan tamamilə çıxarılması, lazım gəlsə əlaqələrin məhdudlaşdırılmasını tələb edir.

Təbii ki, bu tələblər, ümumilikdə son hadisələr ABŞ üçün o qədər yaxşı bir vəziyyət deyil. ABŞ 2003-cü ildə İraqı işğal edərək Səddam Hüseyn rejiminə son qoyub. Rəsmi olaraq 2010-cu ildə ABŞ ordusu İraqı tərk etsə də, hazırda İraqda 5 min amerikalı hərbçi var. Bağdad isə hələ də qeyri-rəsmi də olsa Vaşinqtonun təsiri altındadır. İraqın hazırkı mövcud siyasi idarə sistemini amerikalılar hazırlayıb və ölkə üzərində dominant təsir Vaşinqtona məxsusdur. Eyni zamanda Vaşinqton ötən 16 ildə İraqda hərbi xərclərə və ölkənin yenidən qurulmasına yüz milyardlarla dollar pul xərcləyib. Təkcə gələnilki dövlət büdcəsində İraq ordusuna İŞİD-lə mübarizə üçün 700 milyon dollar pul ayrılıb. Hər il İraq ordusunun qurulması, eləcə də digər sahələrə ABŞ böyük vəsaitlər ayırır.

Lakin bütün bunların qarşısında indi İran İraqda ABŞ-la rəqabətə girişib. Əlbəttə, İraqın indi İranın təsir dairəsində olduğunu demək olmaz, lakin fakt budur ki, bəzi məsələlərdə Tehranın sözü Bağdadda daha yaxşı eşidilir, nəinki Vaşinqtonun.

Yeri gəlmişkən, Ruhaninin İraq səfərindən 3 gün keçməmiş Səudiyyə Ərəbistanı investisiya və ticarət naziri Məcid əl-Qasbi İraqa səfər edib. Bağdadda İraq prezidenti Berham Saleh və baş nazir Adil Əbdülmehdi ilə görüşüb. Görüşdən sonra yayılan açıqlamada qeyd olunur ki, prezident Saleh "bölgə ölkələrinin maraqlarının bir nöqtədə birləşməsi", həmçinin Səudiyyə Ərəbistanı da daxil olmaqla, bölgə ölkələri ilə ortaq iqtisadi maraqların mexanizmini yaratmaq istəyirlər. Eyni zamanda bölgədə qarşıdurma və çəkişmələrdən uzaq, sabitliyin təmin olunması üçün region ölkələri ilə uzlaşma əldə etməyə çalışdıqlarını bildirib. Əl-Qasbi isə sərhəd üzərindən ticarət həcmini daha da yüksəltmək istədiklərini deyib. Eyni zamanda məlum olub ki, İraq baş naziri yaxın zamanda Səudiyyə Ərəbistanına səfər edəcək.

Qeyd edək ki, İraq və Səudiyyə Ərəbistanı arasında daha əvvəl soyuq olan münasibətlər son iki ildə sürətlə istiləşməyə başlayıb. Ötən il baş nazir Heydər İbadi, eləcə də 2018-ci il parlament seçkilərində qalib gələn siyasi koalisiyanın lideri, şiə din adamı Müqtəda əs-Sədr ər-Riyada səfər edib. 2017-ci ildə isə iki ölkə arasında "İraq və Səudiyyə Ərəbistanı Koordinasiya Şurası" yaradılıb.



Aydın məsələdir ki, Səudiyyə Ərəbistanının İraqda son illərdə nəzərəçarpacaq dərəcədə fəallaşmasının əsas səbəbi İrandır. ABŞ və onun əsas bölgə müttəfiqi olan Səudiyyə Ərəbistanı İranın İraqdakı təsirini azaltmağa çalışır. Hətta iraqlılar üçün Həcc və Ümrə ziyarəti zamanı Səudiyyə Ərəbistanının Məkkə və Mədinə şəhərlərində müəyyən güzəştlər həyata keçirilir ki, daha əvvəl bunlar olmayıb. Son illərdə bir sıra iraqlı siyasilərin dini deyil, etnik amili ərəb milləti fikirlərini daha çox qabartması da bununla izah olunur.

İraq bölgədə İran üçün əsas ölkələrdən biridir. Həm dini mərkəz olması, eləcə də dünyada İran və Hindistandan sonra ən böyük şiə icmasının İraqda yaşaması İraqın İran üçün əhəmiyyətini artırır. Üstəlik, ötən ildən başlayaraq Vaşinqtonun artan embarqoları qarşısında İraq indi İran üçün əsas "nəfəslik"lərdən biridir. Eyni zamanda Yaxın Şərqin ən böyük neft ehtiyatlarından birinə sahib, əhali sayı və strateji əhəmiyyəti baxımından İraq İranla yanaşı ABŞ üçün də böyük önəmə sahibdir.

Ehtimal olunan savaş zamanı da İrana əsas təhlükə İraq üzərindən ola bilər. Çünki İranın əsas quru sərhədləri İraqladır. Doğrudur, ABŞ-ın indi Yaxın Şərqin əksər ölkələrində, o cümlədən Bəhreyn, Qətər, Əfqanıstanda da çoxlu sayda hərbi bazaları var. Lakin aydın məsələdir ki, İranın mərkəzinə ən yaxın olması və coğrafi imkanları baxımından İraq daha üstündür. Digər tərəfdən, Vaşinqton İrana qarşı əsas təhdid ünsürləri olan kürd və ərəb separatçı terror təşkilatlarını məhz İraq üzərindən dəstəkləyə bilər. Və nəhayət, hazırkı İran hakimiyyəti üçün əsas siyasi-hərbi müxalifət hesab olunan və ya Vaşinqtonun əsas olaraq gördüyü qrup "Xalqın Mücahidləri" Təşkilatının əsas mərkəzi İraqdır. Doğrudur, bir neçə il əvvəl İran hakimiyyəti İŞİD-ə qarşı mübarizənin aktiv dövründə yaranmış fürsətdən istifadə edərək Bağdadın "Xalqın Mücahidləri"ni ölkədən çıxarmasına nail oldu. Lakin indi qruplaşmanın yenidən İraqa qayıtması haqda fikirlər var.

Görünən odur ki, indi İraq ABŞ və İran arasında əsas savaş meydanıdır. İraq İranın Yaxın Şərqə açılan "qapısı" və eyni zamanda əks cəbhənin İrana qarşı əsas "səngəridir". Son dövrlərdə Vaşinqton iqtisadi sahədə, xüsusən də embarqolar mövzusunda müəyyən qədər yumşalsa da, siyasi cəbhədə İrana qarşı təzyiqlərin daha da artacağını düşünmək olar. Əsas "savaş meydanı" isə Bağdaddır.

❑ **Kənan RÖVŞƏNOĞLU,**
**"Yeni Müsavat"**

# Azərbaycan, azərbaycanlılar və yeni dünya nizamı...



**Hüseynbala SƏLİMOV**

**"Azərbaycan çox kiçik ölkədir, dünya problemlərinin, böyük siyasətin bizə nə dəxli var?"**

Təəssüf, oxşar iddiaları yalnız "adi bəndə"lərin, - siyasətdən və politologiyadan tamam uzaq adamların yox, elə politoloqların və siyasi analitiklərin də dilindən az eşitməmişik.

Sözsüz ki, sırf formal cəhətdən, sxematik məntiq baxımından onlar haqlıdırlar və burada müəyyən qədər həqiqət, özü də acı həqiqət var; bəli, Dünyanı güclü, varlı ölkələr idarə edirlər, üstəlik, Dünya nizamı hələki konsensusdan və insani münasibətlərdən alışdığımız bərabərlikdən çox uzaqdır.

Amma bir neçə səbəblər var ki, onlar bu cür fəlsəfəni heç edir. Birincisi, hər bir dövlət, ən azı konkret olaraq hansısa regionu təmsil edir və regional siyasi və geosiyasi atmosfer həm də onların apardıqları siyasi kursdan asılı olur.

Bu baxımdan baxmayaraq ki, Cənubi Qafqaz da sırf coğrafi miqyasda və yaxud anlamda dünya xəritəsində kiçik bir nöqtədir, bütün hallarda burada baş verən hadisələr və proseslər dünya güclərinin diqqətindədir.

Rusiya və İran kimi geosiyasi nəhənglərlə yaxınlıq, böyük tranzit-kommunikasiya layihələri, karbohidrogen ehtiyatları, Sovetin şinelindən çıxmış və böyük siyasətdə hələ ilk addımlarını atan, hamının öz tərəfinə çəkmək istədiyi gənc dövlətlər, regionun geosiyasi və geoiqtisadi önəmi, nəhayət, Dağlıq Qarabağ, Abxaziya və Cənubi Osetiya kimi münaqişələr - hətta bunlar da bu mürəkkəb siyasi, geosiyasi və etno-siyasi regionun məziyyətlərinin tam siyahısı deyildirE

Regionunun bilavasitə siyasi strukturuna gəldikdə isə, Cənubi Qafqaz əlbəttə ki, ilk növbədə Azərbaycan deməkdir...

Hətta dost olmayan ölkələr də Azərbaycanın lider dövlət rolunu etiraf edirlər; özü də ona görə yox ki, Azərbaycan regionun ən varlı ölkəsidir, həm də ona görə ki, bu mürəkkəb regionda çox şey məhz Azərbaycandan asılıdır, hansı ki, kifayət qədər müstəqil, qeyri - trivial siyasət aparır və faktiki olaraq regionun siyasi və iqtisadi arxitekturasını müəyyən edir.

Qeyd etmək lazımdır ki, belə bir situasiya son vaxtlarda yaranmayıb: yenidənqurmanın başlaması ilə Azərbaycan dərhal regionun "ən qaynar" məkanına çevrildi, müstəqillik əldə edəndən sonra isə tez bir zamanda onun lideri oldu. Yadımıza gəlir ki, bir vaxtlar, hələ mərhum prezident Heydər Əliyevin vaxtında rusiyalı politoloqların arasında belə bir deyim vardı: "Heydər Əliyev asqırdı, Cənubi Qafqazda temperatur qalxdı"...

Odur ki, istəsən də, istəməsən də, fəal siyasət yürütmək, regional və qlobal siyasətin formalaşmasına töhfəmizi vermək nəinki haqqımızdır, həm də borcumuzdur.

Məhz buna görə heç də təsadüfi deyil ki, Beynəlxalq Humanitar Forum kimi tədbirlər başqa yerdə yox, məhz Azərbaycanın paytaxtında keçirilir və burada mürəkkəb 21-ci əsrdə bəşəriyyət qarşısında duran problemlər və çağırışlar müzakirə olunur.

İlk baxışda artıq bəşəriyyətə qarşı birbaşa qlobal təhlükələr, təhdidlər yoxdur, amma tamam arxayınlaşmaq üçün də əsas yoxdur - elə yeni təhlükələr yaranıb ki, onlar hətta elmi fantastikanın Ayzek Əzimov və Stanislav Lem kimi "kit"lərinin belə ağlına gəlmirdi, ondan qala Struqatski qardaşları ola; bəli, Dünya getdikcə çətin proqnozlaşdırılır və ən yeni təhlükələr qarşısında hələki müdafiəsiz görünür...

Təəssüf ki, böyük siyasətdə rəhm kimi anlayışlar yoxdur, burada humanitar planda və anlamda böyük və kiçik dövlətlər olmur, odur ki, bu böyük okeanda batmamaq üçün daim çabalamaq, nəsə etmək lazımdı.

Biz bu cür tədbirlərin təbliğat tərəfi haqda danışmayacağıq. Amma bir detalı qeyd etməmək mümkünsüzdür.

Biz nəhayət ki, bir neçə ildir, ölkənin və onun cəmiyyətinin bir əsas xüsusiyyəti, multikulturalizm haqqında danışmağa başlamışıq.

Burada da bəzən oxşar tərəddüdlər eşidirsən ki, özümüzü və ölkəmizi təriflməklə bəşəriyyəti yormuruq ki?..

Birbaşa deyəcəm: yox, yormuruq! Bu, hətta bizim Dağlıq Qarabağ konsepsiyamızın ayrılmaz hissəsi olmalıdır, çünki ermənilərin yalançı təbliğatının bir "sütunu" da budur ki, guya mütərəqqi xristianlar olan ermənilər geridə qalmış, feodal, müsəlman azərbaycanlılarla bir yaşaya bilməzlər!..

Amma bir məqam da var. Amerikalı psixoloq, "çoxsaylı intellekt" nəzəriyyəsinin banisi Hovard Qardner beş şüur və intellekt tipi haqqında yazır. Onlardan biri də "hörmətedici tip" adlanır. Mənası da budur ki, müasir insan müxtəlif mədəniyyətləri qəbul etməyə hazır olmalı, irqi, dini və milli mənsubiyyətindən, hətta peşəsindən asılı olmayaraq bütün insanlarla birgə yaşamağı, onlara qarşı dözümlü olmağı bacarmalıdır.

Bəli, müasir multikulturalizm modeli məhz budur. Bu isə biz azərbaycanlıların qanındadır. Bəlkə də ona görə ki, azərbaycanlıların etnogenizinin formalaşmasında müxtəlif milli, dini və mədəni elementlər iştirak edib və bu da bizim təkcə adi xüsusiyyətimiz deyil, həm də üstün cəhətimizdir. Ona görə də bu haqda niyə susmalıyıq ki?..

YENİ MÜSAVAT
N 62 (7232) 19 mart 2019



# Cahangir Hacıyevin 4.7 milyardlıq cinayət işi yekunlaşır

## Sabiq bankir 21 nəfərlə birlikdə növbəti dəfə hakim önünə çıxarılıb

**Musavat.com xəbər verir ki, "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin İdarə Heyətinin sabiq sədri Cahangir Hacıyev və onunla birlikdə ittiham edilən şəxslərin cinayət işi üzrə məhkəmə iclası Bakı Ağır Cinayətlər Məhkəməsində baş tutub.**

Hakim Faiq Qəniyevin sədrliyi ilə keçirilən prosesdə şahid qismində Həbib Qafarov ifadə verib.

Şahid bildirib ki, daha əvvəl Azərbaycan Beynəlxalq Bankının "Mərkəz" filialında xəzinədar işləyib.

O, bankda müştərilərin gətirdiyi kassa məxaric orderləri və qəbzləri qəbul etdiyini deyib: "25 il bankda işləmişəm. Çalışdığım dövrdə heç bir müştəriyə kassadan çeksiz pul verməmişəm".

Şahid təqsirləndirilən Cahangir Hacıyevi tanımadığını deyib.

Vaqif Abbasov isə şahid qismində dindirilən zaman deyib ki, Azərbaycan Beynəlxalq Bankının "Mərkəz" filialında xəzinədar vəzifəsində çalışıb. Hazırda isə Nəsimi filialında işləyir.

Məhkəmə prosesi digər şahidlərin dindirilməsi ilə davam etdirilib.

Xatırladaq ki, zərərçəkmiş qismində Beynəlxalq Bankla yanaşı, Aqrokredit bank və Vergilər Nazirliyi tanınıb.

Həbs edilənlərdən biri C.Hacıyevin dostu, hazırda həbsdə olan Dünyamin Xəlilovdur. İsmayıl Hidayət-zadə təqsirləndirilən şəxsdir. O, C.Hacıyevin bacanağıdır və "İntertabakko" Zaqatala Tütün Emalı Zavodunun direktoru vəzifəsində işləyib.

Hidayət-zadə "Azərbaycan Beynəlxalq Bankı" ASC-dən kredit götürərək qaytarmamaqda günahlandırılıb və 5 il cəza alıb.

Digər şəxslər isə Camal Həsənov, Sərxan Rəsulov, Natiq İmanov, Samir Hacıyev, Təbriz Əbdülhəmidov, Mahir Qafarov, Sadıx Murtuzayev, Tərlan Məhərrəmov, Fəxrəddin Heybətov, Ramin Əhmədov, Mariz Muradov, Səlahəddin Qədirov, Erxan Cavad, Arif Ramazanov, Navai Şirinov, Svetlana Əsədullayeva, Arif Mədətov, Adil Mikayılov, Ramis Kərimovdur.

Onlar barəsində mənimsənmə ittihamı irəli sürülüb.

Rəsmi məlumata görə, aparılmış istintaqla 2001-2015-ci illərdə "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin İdarə Heyətinin sədri vəzifəsində işləmiş C.Hacıyevin göstərişləri əsasında ayrı-ayrı ölkələrdə yaradılmış hüquqi şəxslərlə real dəyəri olmayan sadə veksellərin alqı-satqısına dair 3,4 milyard ABŞ dolları və 987 milyon avro məbləğində (müvafiq dövrün məzənnəsi ilə 3,8 milyard manat) müqavilələr bağlanılaraq qanunsuz veksel əməliyyatları aparılmasına dair əsaslı şübhələr müəyyən edilib.

Bundan başqa, istintaqla C.Hacıyevin göstərişləri əsasında həmin dövrdə qeyriləri vasitəsilə çoxsaylı kredit müqavilələri bağlanaraq manat və xarici valyutalarla rəsmiləşdirməklə 900 milyon manat həcmində pul vəsaitinin bankdan digər hesablara köçürülərək mənimsənilməsinə dair əsaslı şübhələr müəyyən edilib.

Aparılmış istintaqla C.Hacıyevin tanışı Dünyamin Xəlilov, digər 20 nəfər və qeyriləri ilə birlikdə qanunsuz maliyyə əməliyyatları aparılan və real dəyəri olmayan veksellərin alınması, eləcə də təminatı olmayan kreditlərin verilməsi yolu ilə ümumilikdə 4,7 milyard manat məbləğində pul vəsaitinin mənimsəmə və digər cinayətlər yolu ilə 2,5 milyard manat hissəsini ələ keçirməklə cinayət yolu ilə əldə edilmiş həmin vəsaitin 2 milyard manatını leqallaşdırmasında, digər 2,2 milyard manat məbləğində pul vəsaitinin isə müxtəlif əməliyyatlara yönəltməklə "Azərbaycan Beynəlxalq Bankı" ASC-yə ziyan vurmasına əsaslı şübhələr müəyyən edilib.

❑ **İlkin MURADOV, Musavat.com**

# Mərkəzi Bank yenilənmiş 10 manatlıq pul nişanını dövriyyəyə buraxır

**Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən 2006-cı il yanvarın 1-də denominasiya tədbirləri çərçivəsində tədavülə yeni nəsil pul nişanları buraxılmışdır.**

Bankdan verilən məlumata görə, tədavülə buraxılmasından 13 il keçməsinə baxmayaraq bu pul nişanları öz estetik görünüşünə, konseptual mövzusuna, müasirliyinə və mühafizə sistemlərinə görə aktuallığını hələ də qoruyur.

Bununla yanaşı, hazırda dünyada pul nişanlarının yaradılması və istehsalı sahəsində bir çox yeniliklər baş verir, pulların dizaynının və mühafizə sistemlərinin təkmilləşdirilməsi istiqamətində yeni innovasiyalar, nano və mikro texnologiyalar geniş tətbiq olunur.

Dünyanın aparıcı mərkəzi bankları kimi Azərbaycan Mərkəzi Bankı da bu çağırışlardan irəli gələrək dünya təcrübəsində mövcud olan ən son texnologiyalar və innovasiyaları nəzərə almaqla pul nişanlarımızın dizaynının və xüsusilə mühafizə sistemlərinin təkmilləşdirilməsini daim diqqət mərkəzində saxlayır.




Bu istiqamətdə ölkə iqtisadiyyatının dinamik inkişafını, dövriyyədə olan nağd pulun strukturunda baş verən dəyişiklikləri nəzərə alaraq, eləcə də nağd pul sferasında səmərəliliyin yüksəldilməsinin təmin edilməsi məqsədilə Azərbaycan Mərkəzi Bankı tərəfindən 24 may 2018-ci il tarixində tədavülə 200 manatlıq pul nişanı buraxılmışdır.

Mərkəzi Bank tərəfindən dizayn mövzusu "Azərbaycan tarixinə" həsr olunmuş 10 manatlıq pul nişanının təkmilləşdirilməsi və mühafizə elementlərinin müasirləşdirilərək daha yüksək standartlara uyğulaşdırılması həyata keçirilmişdir.

Yenilənmiş 10 manatlıq pul nişanında əsas dizayn elementləri (İçərişəhərin və Qız qalasının sxematik təsviri, Azərbaycanın xəritəsi və Avropaya inteqrasiya, bir sıra milli xalça naxışları) saxlanılmışdır.

Mühafizə sistemlərinə gəldikdə isə, mövcud 10 manatlıqdan fərqli olaraq yeni pul nişanında su nişanı kimi Azərbaycanın Dövlət Gerbi təsvir olunmuşdur.

Pul nişanının ön tərəfində Qız qalasının təsvirini, hərəkət edən dalğaları və rəngi dəyişən nominalı əks etdirən 3D effektli yeni holoqram (LEAD) yerləşir. Holoqramın müxtəlif hissələrində rəngi dəyişən mini-mətnlər və nominalın rəqəmləri görünür. Eyni zamanda banknotun ön tərəfində İçərişəhərin qala divarlarını əks etdirən, rəngi yaşıldan göyə dəyişən, 3D hərəkət və dinamik işıq effektləri saçan möcüzəli boya (SPARK LİVEo) yerləşir. Pul nişanının kənarlarında isə görmə qüsuru olan insanlar üçün qabarıq xətlərdən ibarət tanınma elementi əks olunur.

Pul nişanının arxa tərəfində isə üzərində işıqda görünən "10" rəqəmi və "AMB" yazısı olan pəncərə tipli, rəngi yaşıldan göyə dəyişən yeni mühafizə sapı (Rolling Staro) yerləşir. Eyni zamanda üzərində "10 AZN" yazıları olan sayrışan bənövşəyi və qızılı rəngli zolaqlar əks etdirilmişdir.

Yenilənmiş 10 manatlıq pul nişanı 18.03.2019-cu il tarixdən tədavülə buraxılır. Bu pul nişanı hazırda tədavüldə olan 10 manatlıq pul nişanı ilə paralel olaraq dövriyyədə olacaq və hər iki pul nişanı tədavül vasitəsi kimi məhdudiyyətsiz istifadə ediləcəkdir.

# ABŞ indi də Venesuelaya görə Rusiyaya qarşı sanksiyalar tətbiq edir

**ABŞ Konqresində "Venesuelaya təsir göstərən" Rusiya və digər xarici ölkələrin vətəndşalarına qarşı sanksiyalar tətbiq olunması barədə qanun layihəsi hazırlanıb.**

Sənəd "Rusiya hökuməti adından Venesuelanın təhlükəsizlik qüvvələrinə birbaşa dəstək verən şəxslərin" Birləşmiş Ştatlara gəlməsinə və onlara viza verilməsinə xüsusi məhdudiyyətlərin tətbiq olunmasını nəzərdə tutub.

Bundan başqa, belə bir vizaya malik əcnəbilərin dərhal bu hüquqlardan məhrum edilib ölkələrinə geri göndərilməsi tələb olunur.

Qanun layihəsinin mətnində Rusiyanın Qərb yarımkürəsində mövcudiyyətini artırdığı və bu gəlişmənin ABŞ-da və bütöbvlükdə bölgədə xüsusi narahatlıq doğurduğu vurğulanıb.

Xüsusilə müəlliflər keçən ilin dekabrında Rusiyanın iki ədəd ağır Tu-160 strateji raket daşıyıcı təyyarə, An-124 ağır hərbi nəqliyyat təyyarəsini və uzun magistrallı İl-62 hərbi təyyarəsi göndərdiyini xatırladıblar.

Layihədə rəsmi Moskvanın Maduro rejiminə ciddi maliyyə dəstəyi verdiyi qeyd olunur. Məsələn, bu il martın 12-də dövlət katibi Maykl Pompeo Rusiyanı sanksiyalara rəğmən Venesueladan neft almaqda ittiham etmişdi.

❑ **Musavat.com**

# "Trampın çaldığı hava ilə oynamayın"

## Avstriya prezidenti Avropa ölkələrinə səsləndi


Aleksander Van der Bellen

**Avstriyanın prezidenti Aleksander Van der Bellen avropalı siyasətçiləri ABŞ prezidenti Donald Trampın əmri ilə oturub-durmamağa çağırıb.**

Musavat.com xarici agentliklərə istinadən xəbər verir ki, Avstriyanın dövlət başçısı bu sözləri Almaniyanın "Die Welt" saytında səsləndirib.

O, Avropa Birliyi və Birləşmiş Ştatların ziddiyyətə düşdüyü mövzularda İttifaqın öz mövqeyini əminliklə müdafiə etməli olduğunu düşündüyünü bildirib.

Van der Bellen bu mənada İranla imzalanan nüvə sazişi məsələsinə də toxunaraq ABŞ-ın əvvəlcə Avropa ilə birgə razılaşdırıb bağladığı həmin müqavilədən özünün çıxdığını bildirib.

Onun sözlərinə görə, rəsmi Vaşinqton indi də İranla iş qurmaq istəyən Avropa şirkətlərinə mane olur və onları əsassız yerə sanksiyalarla hədələyir.

"Bu artıq "ağ oldu". Avropalılar Trampın havası ilə oynamalı deyillər ki...", - prezident qəzəbini ifadə edib.

Van der Bellen Avropanın başqa məsələlərdə də eyni qətiyyəti göstərməli olduğunu vurğulayıb.

Qeyd edək ki, Avstriya Avropa Birliyi ölkələri içində Rusiyaya ən yaxın dövlətlərdən sayılır. Avstriya kansleri Sebastyan Kunts rəsmi Moskvaya qarşı tətbiq olunan sanksiyaların ləğvindən yana olan siyasətçilərdəndir.

❑ **Musavat.com**

YENİ MÜSAVAT
N 62 (7232) 19 mart 2019

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

**İşğalçı Ermənistan və Qarabağdakı separatçı-terrorçu qüvvələr danışıqların pozulması istiqamətində cəhdlərini israrla davam etdirirlər. Rəsmi İrəvan vaxtaşırı dinc tənzimlənməyə maraqlı olduğunu iddia etsə də, Ermənistan rəhbərliyinin və Xankəndindəki separatçıların iddiaları bunun əksini deyir.**


Qafar Çaxmaqlı



# Ermənilərdən Qarabağla bağlı sərsəm iddia

Qarabağ separatçıları işğal altındakı Azərbaycan ərazilərini "Rusiyanın mandatı altına verməyə" çağırır; ABŞ Dövlət Departamentinin sərt "şilləsi"ni dadan işğalçı üzünü yenidən Kremlə tutur; **Qafar Çaxmaqlı:** "Qarabağ beynəlxalq birlik tərəfindən Azərbaycan ərazisi sayılır və Ermənistanın işğalı altında olduğu qəbul edilir..."

**Növbəti qalmaqallı iddia ilə "dqr"in keçmiş "müdafiə naziri", Azərbaycan ərazilərinin işğalına rəhbərlik edənlərdən biri, general Samvel Babayan çıxış edib. Babayan 24news internet televiziyasının efirində Ermənistanı Qarabağ münaqişəsinin nizamlanmasına dair Madrid prinsiplərindən imtina etməyə və Qarabağı Rusiyanın mandatı altına verməyə çağırıb.** "Beynəlxalq problemlərin həlli mexanizmləri var. Bu cür kəskin münaqişələr ərazi mandatının verilməsi yolu ilə həll olunur. Məsələn, Rusiya mandatı alır, xəritəni tətbiq edir və insanlar cızılmış sərhədlər daxilində yaşayırlar. Lakin demək ki, Ermənistan və Azərbaycan masa arxasına oturub razılaşsın... Bu məsələni həll etməyəcək, pozulmaya və müharibəyə gətirib çıxaracaq" - Babayan bildirib.

**Dağlıq Qarabağ "prezidenti" olmağa iddia edən keçmiş səhra komandirinin bu açıqlaması sosial şəbəkələrdə qızğın müzakirələrə səbəb olub. Virtualaz.org xəbər verir ki, politoloq Styopa Səfəryan facebook səhifəsində Babayanın dediklərini belə şərh edib:** "Xatırlayırsınızmı, 2016-cı ildə Moskvadan qayıdan kimi Samvel Babayan 4 günlük aprel müharibəsini necə şərh etmişdi? Baş verənləri müharibə yox, diversiya adlandırmışdı. Bu da hücum edən tərəfdən "məsuliyyətin götürülməsi" demək idi, çünki diversiyaya görə beynəlxalq məsuliyyət yoxdur, amma müharibəyə görə var. İndi Babayan deyir ki, Qarabağ Rusiyanın mandatı altına keçməlidir. Rusiyada 2008-ci ildə işlənib hazırlanan, 2012-2013-cü illərdə konseptual olaraq təqdim edilən proqram əsasında. Həmin proqramın mahiyyətinə görə Abxaziyada, Cənubi Osetiyada və Dnestryanı bölgədə olduğu kimi, Dağlıq Qarabağda da Rusiyanın hərbi iştirakı olmalıdır. Bu yeganə məqamdır ki, hətta Serj Sərkisyan da ona müqavimət göstərib, aprel müharibəsi və Belarus prezidenti Lukaşenko da buna şahiddir..."

İşğalçı tərəf vaxtaşırı Qarabağ məsələsinə KTMT-nin, xüsusilə də Rusiyanın açıq şəkildə müdaxilə etməsi üçün təxribatlara əl atır. Hətta Ermənistan-Azərbaycan sərhədində təxribatların törədilməsində əsas məqsəd "Rus NATO"sunu proseslərə qoşmaq olub. Ermənistan Rusiyanı Qarabağa "gətirmək" üçün ən müxtəlif təxribatlara əl atır. Ötən il Rusiya XİN başçısı Sergey Lavrovun "Dağlıq Qarabağ Azərbaycanın daxili işi deyil" məzmunlu əcaib bəyanatı da uzun müddət erməniləri həvəsləndirdi. Eyni zamanda son həftələrdə Rusiya XİN-dən erməniləri müdafiə ilə bağlı verilən bəyanatlar işğalçıların əl-qolunu açıb.

Yeri gəlmişkən, ötən həftə ABŞ Dövlət Departamentinin Ermənistanla bağlı yeni hesabatında bildirilir ki, "separatçılar Ermənistanın dəstəyi ilə Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin və ona bitişik yeddi rayonun ərazisinin böyük bir hissəsinə nəzarət etməkdə davam ediblər". Ermənistanı açıq-aşkar işğalçılıqda və separatçılığı dəstəkləməkdə ittiham edən bu hesabatı şərh edən Ermənistan XİN-in mətbuat katibi Anna Naqdalyan bildirib ki, ABŞ Dövlət Departamentinin son hesabatında yeni heç nə yoxdur və bu təsbit hər il təkrar olunur. Ən ziddiyyətlisi ondan ibarətdir ki, rəsmi İrəvanın Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizama salınması üzrə danışıqlarda yeni format təklif etməsi fonunda XİN nümayəndəsi ABŞ-ın ATƏT-in Minsk Qrupunun həmsədri kimi "hazırkı format çərçivəsində" problemin dinc yolla həllinə səy göstərdiyini əlavə edib. ATƏT-in Minsk Qrupunun həmsədrlərinin və ATƏT-in fəaliyyətdə olan sədrinin də Ermənistanın danışıqların formatının dəyişdirilməsi ilə bağlı qeyri-konstruktiv mövqeyinin qəbuledilməz olduğunu bəyan etdikləri bir şəraitdə A.Naqdalyan ikiüzlü şəkildə qeyd edib ki, İrəvan "öz öhdəliklərini yerinə yetirir".

Xatırladaq ki, ötən ilin payızında ABŞ-ın Ermənistandakı səfiri Riçard Mills açıqlaması ilə Ermənistanda şok yaratmışdı. İşğal edilmiş ərazilərin bir hissəsini Azərbaycana qaytarmadan, Dağlıq Qarabağ münaqişəsini həll etmək mümkün olmayacaq, deyən diplomatın Vaşinqtonun mövqeyini ifadə etmədiyi barədə iddialar da var idi. "Demək olar ki, tərəfləri razı salan variantların heç biri Ermənistanda müzakirə edilmir. Bu, məni təəccübləndirir", - deyə səfir demişdi. Üstündən aylar keçəndən sonra Ermənistanın kompromislərə hazır olmadığı bir daha təsdiqləndi. ABŞ Dövlət Departamentinin İrəvana sərt bəyanatının ardınca ermənilərin Rusiyaya meyllənməsi də təsadüfə oxşamır.

**Ermənişünas alim Qafar Çaxmaqlı "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, ermənilər bir az sıxışan kimi Rusiyaya qarmaq atırlar, bu ölkə üçün də cəzbedici iddialarda bulunurlar:** "Dağlıq Qarabağın Rusiyanın mandatlı bir bölgəyə çevrilməsi düşüncəsi yeni deyil. Bir neçə il bundan əvvəl separatçı ideoloq Zori Balayan Rusiya prezidenti Putinə bir məktub yazmışdı və həmin məktubunda o, guya 1828-ci ildə Qarabağın könüllü olaraq Rusiyanın tərkibinə keçdiyini və bu ərazilərin Rusiyaya məxsus olduğunu bildirmişdi. Balayan Rusiyadan xahiş etmişdi ki, bu torpaqlara sahib çıxsın. Dolayısı ilə Qarabağın Rusiyaya birləşdirilməsini istəmişdi. O zaman Ermənistanın özündə Balayana çox ciddi müqavimət göstərilmiş və bu ərazilərin Ermənistana "məxsusluğu" qeyd edilmiş və Balayan erməni davasına xəyanətdə suçlanmışdı. İndi bu köhnə bayatını Samvel Babayan oxuyur. Ermənilər anlamağa başlayırlar ki, de-yure heç zaman Dağlıq Qarabağı özlərininki edə bilməyəcəklər. Danışıqlardan bir şey çıxmasa ərazilərini hərbi yolla özünə qaytarmaq Azərbaycanın təbii haqqı olaraq hər zaman real olacaq. Bu səbəbdən yollar fikirləşirlər. Amma bunların heç biri həyata keçə bilməz. 4 günlük müharibənin də Rusiya tərəfindən törədilməsi və buraya ordu yeritmək fikri də ermənilərə məxsusdur. Onlar Rusiyanın Qarabağda əsgəri varlığını istəyirlər".

**Q.Çaxmaqlı onu da əlavə etdi ki, S.Babayan kimilər törətdikləri cinayətlərə görə özlərini sığortalamaq niyyətindədir:** "Amma baxaq, görək Rusiya bu təxribata gedərmi? Əlbəttə yox. Qarabağ məsələsini də digər münaqişələrlə eyniləşdirmək mümkün deyil. Dağlıq Qarabağ beynəlxalq birlik, o cümlədən Rusiya tərəfindən Azərbaycan əraziləri olaraq tanınır və Ermənistanın işğalı altında olduğu qəbul edilir. Əraziləri işğaldan azad etməyin isə iki yolu var. Danışıqlar və hərbi müdaxilə. Bunlardan ikisindən biri olacaq. Ehtimal ki, ikinci yol baş verəcək. Balayanın, Babayanın təklif və cəhdləri təxribatdır".

**Ekspertin sözlərinə görə, Madrid prinsiplərində münaqişə bölgəsində sülhü təmin etmək üçün buraya sülhməramlıların yerləşdirilməsi nəzərdə tutulur:** "Amma digər həmsədr ölkələrin bunu Rusiyanın öhdəsinə buraxmaq fikirləri yoxdur. Olsa da, Minsk Qrupuna daxil olan ölkələrin hərbi birləşmələri ola bilər. KTMT da belə bir xidmət təklif edirdi. Azərbaycan qəti etiraz bildirəndən sonra bu məslə qapandı. Rusiyanın mandat məsələsi heç zaman gündəmdə olmayıb. Babayanın təklifi həm də danışıqlar prosesini pozmaq və məsələnin həllini daha da uzatmaq cəhdindən başqa bir şey deyildir. O, həm də publikaya oynayır. Separatçıların lideri olmaq üçün mənasız cəhdlər edir. Ermənistanın özündə belə, bu mənasız təklifi bəyənən yoxdur".

****

**Rəsmi Bakıdan işğalçı tərəfin son davranışlarına növbəti dəfə tutarlı cavab verilib. "Ermənistanın dediyi sülhlə beynəlxalq hüququn dediyi sülh arasında fərq var". "Report" xəbər verir ki, bunu Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "Anadolu" agentliyinə müsahibəsində bildirib.**

**O, Azərbaycanın xoşməramlı olmasının göstəricisi kimi prezident İlham Əliyevin Ermənistanın baş naziri Nikol Paşinyala üç dəfə görüşdüyünü söyləyib:** "Azərbaycanın səbrinin də sərhədi var. BMT Təhlükəsizlik Şurasının tələblərinə uyğun olaraq, Ermənistan ordusu Azərbaycan torpaqlarından çıxmalıdır. Əks halda, Azərbaycan hər bir dövlət kimi BMT-nin nizamnaməsində göstərilən bütün hüquqlarından istifadə etmək məcburiyyətində qalacaq".

**PA rəsmisi danışıqlar prosesinin irəliləməsi üçün Ermənistanın da lazımi addımlar atmasının vacibliyini vurğulayıb:** "Sanki Ermənistan hakimiyyəti əvvəlki Sərkisyan-Köçəryan rejiminin səhvlərini təkrarlayır və danışıqlar prosesini bloklayacaq bəyanatlar verir. Ermənistan tərəfindən daha doğru addımlar atılmasına ehtiyac var. Beynəlxalq ictimaiyyət bu məsələdə israrlı olmalı, Ermənistana qəti siyasi və diplomatik mesajlar verməlidir. İşğalın 25 ildən artıq davam etməsi təcavüzkarı cəsarətləndirir, Ermənistanın işğalçı siyasətini gücləndirir".

**H.Hacıyev əminliklə Azərbaycan xalqının barışa hazır olduğunu qeyd edərək sülhün də ədalətli olmasının vacibliyini deyib:** "Ermənistan mövcud vəziyyəti, yəni işğalı davam etdirməyi sülh kimi qələmə verməyə çalışır. Buna sülh deyə bilmərik. Dolayısı yolla Ermənistan xalqının sülhə hazırlanmasına ciddi ehtiyac var. Ermənistan ona aid olmayan, işğal etdiyi torpaqlardan çıxmalı, Azərbaycan və başqa qonşu dövlətlərlə sülh şəraitində yaşamalıdır". Şöbə müdiri Dağlıq Qarabağ probleminin həlli ilə bağlı beynəlxalq ictimaiyyətin səylərinin yetərsiz olduğunu da söyləyib: "Müzakirələr 25 ildən artıqdır davam edir. Bu müddət ərzində Azərbaycan torpaqları işğaldan xilas oldumu? Xeyr! Məcburi köçkünlər torpaqlarına qayıtdımı? Xeyr. Artıq işğalçı və təcavüzkarı adı ilə çağırmağın zamanıdır".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 62 (7232) 19 mart 2019

**Daxili İşlər Nazirliyi (DİN) Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşları tərəfindən dələduzluq yolu ilə insanların etibarından sui-istifadə edən və bunun-la da zərərçəkənlərin külli miqdarda xarici valyutada olan pul vəsaitini mənimsəyən mütəşəkkil cinayətkar dəstənin üzvləri ifşa edilibl-lər.**

# Böyük kriptovalyuta fırıldağı - Azərbaycanda 4 min nəfərə 700 min dollar “atıb”lar

## Osman Gündüz: “Bu adamların adını ”BeardyCoin" qoyduqları, kriptovalyuta kimi təqdim etdikləri beynəlxalq birjalarda tanınmır, bu adda kriptovalyuta yoxdur"

DİN-dən verilən məlumata görə, Baş İdarənin Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının əməkdaşlarının iştirakı ilə keçirdikləri əməliyyat tədbiri nəticəsində bir qrup şəxsin investisiya şirkəti adı altında “şəbəkə biznesi” yaradaraq çoxsaylı vətəndaşları aldatmaları müəyyən edilib. Araşdırma zamanı müəyyən olunub ki, Bakı şəhər sakini Kənan Mustafazadə, Qırğızıstan Respublikasında anadan olan Rəfail Taştəmirov, Lənkəran rayon sakini Xəyal Yaxyayev, Gəncə şəhər sakini Müslüm İsmayılov, Qəbələ rayon sakini Araz Qasımov və qeyriləri 2018-ci ilin iyun ayında internet şəbəkəsində xüsusi lokal proqram yaradaraq, dövlət qeydiyyatına alınmayan və dövlət reyestrinə daxil edilməyən “İnvestsland” investisiya şirkəti adı altında özləri tərəfindən uydurulmuş “şəbəkə biznesi” yaradıblar. Onlar əslində mövcud olmayan “BeardyCoin” adlı kriptovalyutanın guya beynəlxalq valyuta bazarında satışını təşkil etdiklərini, mərkəzi ofislərinin Amerika Birləşmiş Ştatlarında yerləşdiyini və özlərini həmin şirkətin Azərbaycan Respublikasındakı rəsmi nümayəndələri kimi təqdim edərək “investisiya paketi” adı ilə şişirdilmiş yüksək gəlirlər vəd etməklə vətəndaşların pul vəsaitlərini aldatma yolu ilə ələ keçiriblər. Bu qayda ilə adıçəkilən şəxslər qurduqları “şəbəkə biznesi”nə piramida şəklində çoxsaylı vətəndaşları cəlb edərək onlara faktiki mövcud olmayan, uydurulmuş “BeardyCoin” adlı kriptovalyutanı 700 min ABŞ dollarına satıblar. Araşdırma zamanı dəstə üzvlərinin “investisiya paketi” adı altında şişirdilmiş yüksək gəlirlər təklif edərək ümumilikdə 4000-ə yaxın vətəndaşı aldatdıqları müəyyən edilib. Əməliyyat tədbirlərinin davamı olaraq həmin şəxslərin paytaxtın Nəsimi rayonunda icarəyə götürdükləri ofisə baxış keçirilən zaman iş üçün əhəmiyyət kəsb edən maddi sübutlar aşkar edilərək götürülüb. Faktla bağlı Baş İdarənin İstintaq Şöbəsində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 178.3.1 (dələduzluq, mütəşəkkil dəstə tərəfindən törədildikdə) maddəsi ilə cinayət işi başlanıb, mütəşəkkil dəstənin 5 üzvü barəsində həbs-qətimkan tədbiri seçilib, istintaq-əməliyyat tədbirləri davam etdirilir.



**“Multimedia” İnformasiya Sistemləri Texnologiyaları Mərkəzinin direktoru, Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz “Yeni Müsavat”a deyib ki, Azərbaycanda kriptovalyuta alqı-satqısı qadağan edilməyib:** “Mümkündür ki, tutulanlar vətəndaşların inamından istifadə ediblər. Onlardan kriptovalyuta alışı üçün pul alıblar. Əslində isə belə biznes, ümumiyyətlə, olmayıb. Söhbət kriptovalyuta istehsalından - mayninqdən gedirsə, burada cinayət yoxdur. Vətəndaşı aldadıb pulunu alıblarsa, bu artıq cinayətdir və qanunla cəzalandırılır”.

**Osman Gündüz deyir ki, Azərbaycanda “BeardyCoin” adlı kriptovalyuta istehsalı haqda eşitməyib:** “Belə alqı-satqılar zamanı vətəndaşlar diqqətli olmalıdırlar. Vətəndaşın özünün bu sahə ilə bağlı bilgilərinin olması vacibdir. Vətəndaş kriptovalyuta haqda məlumatlı olmalıdır. Kriptovalyuta bazarında risklər böyükdür. Bu gün qiyməti 10 manat olan kriptovalyutanın sabah qiyməti 5-6 min, o biri gün 5 manat da ola bilər. Ona görə də kriptovalyuta almaq istəyən vətəndaş bu risklərdən xəbərdar olmalıdır. Vətəndaşın treydinq prosesinə hazırlığı yoxdursa, bu işə qol qoyması məsləhət deyil. Böyük risklərlə zəngin bir prosesdir. Bir anın içində milyonçuya çevrilib, bir anın içində də müflis olmaq mümkündür. Belə faktlar da minlərlədir”.

**Mərkəz direktoru Azərbaycanda kriptovalyuta istehsal edən mayninq fermalarının gündən-günə artdığını, bu sahənin genişləndiyini bildirdi:** “Mayninq fermalarının yaradılması üçün güclü kompüterlər, beynəlxalq şəbəkəyə çıxış yetərlidir. Avadanlıqlar və qeyd olunan şərtlər varsa, kriptovalyuta istehsalına başlamaq olur. Bunu istənilən şəxs edə bilər. Bu gün Azərbaycanda qonşu ölkələrlə müqayisədə mayninqlə məşğul olanlar ən az bizdədir. Ortabab mayninq ferması ayda 200-300 manat enerji sərf edir. Bu işdə əsas xərc alınan avadanlıqlara və sonrakı dönəmdə enerjiyə xərclənir. Bu intellektual bir işdir və bu gün Azərbaycanda bu işə maraq var. Kriptovalyutanın dəyər qazanması üçün bazara çıxması, arxasındakı qurumun dayanıqlığı, beynəlxalq birjalarda təsdiqlənməsi, alqı-satqı vasitəsinə çevrilməsi və s. şərtləri var. Bu böyük prosesdir və asan başa gəlmir. Kriptovlyutadan gəlir götürən vergi ödəməlidir. Saxlanılan dəstə üzvlərinin əməlinin dələduzluq kimi tövsif olunması onu deməyə əsas verir ki, tutulanların vergi ilə problemləri yoxdur. Bu adamların adını ”BeardyCoin" qoyduqları, kriptovalyuta kimi təqdim etdikləri beynəlxalq birjalarda tanınmır, bu adda kriptovalyuta yoxdur. Bu, sadəcə, piramidadır. Pul yığmaqdır. Belə piramidalar ən müxtəlif işlərin görülməsi görüntüsünü yaratmaqla həyata keçirilir. Görünür, tutulanların kriptovalyuta haqda az-maz məlumatları olub. Adamları bu adla inandırmağa çalışıblar, buna nail olublar. Ortada kriptovalyuta məsələsi də sırf piramidaya daha çox şəxsi cəlb etmək baxımından atılıb. Yeni kriptovalyuta məsələsi boş bir şey olub, məqsəd pul toplamaq olub".

Osman Gündüz ümumilikdə kriptovalyuta treydinqinin vüsət aldığını, bu biznesdən qazanc əldə etmənin mümkünlüyünü bildirib.

**E.MƏMMƏDƏLİYEV, “Yeni Müsavat”**

# Gömrükçülər sərhəddə 306 kiloqramdan artıq heroin tutdular

## Daş blokların arasında narkotik gizlədən sürücü sərhəd-keçid məntəqəsində ələ keçib





**Gömrükçülərin həyata keçirdiyi daha bir uğurlu əməliyyat nəticəsində külli miqdarda, 306 kiloqram 710 qram narkotik vasitə-heroin aşkar edilib.**

DGK Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsindən musavat.com-a verilən məlumata görə, Cənub Ərazi Baş Gömrük İdarəsinin Əməliyyat və Təhqiqat İdarəsinə daxil olan əməliyyat məlumatı əsasında Biləsuvar gömrük postunda İran İslam Respublikasının “Nader Morvarid Astara” şirkəti tərəfindən Azərbaycan Respublikası ərazisindən tranzit keçməklə Gürcüstanın “Mariana Younes Saei Dızajyekan” şirkətinə göndərilən “daş bloklar” yükü daşıyan “SCANIA” markalı “43A457-10/43A458-10”, ”VOLVO" markalı 75A237-10/75A238-10, “VOLVO” markalı 26A951-10/26A952-10 dövlət qeydiyyat nişanlı yük avtomobilləri saxlanılaraq stasionar rentgen qurğusundan keçirilib.

Yoxlama zaman “SCANIA” markalı 43A457 - 10/43A458-10 və “VOLVO” markalı 26A951 - 10/26A952-10 dövlət qeydiyyat nişanlı yük avtomobillərinin qoşqularında olan “Daş bloklar” yükünün təsvirlərində şübhəli cizgilər müşahidə edilib.

İİR vətəndaşı Azıziкoshki Majid Hassanın idarə etdiyi “SCANIA” markalı yük avtomobilindəki paletlərdən birinə gömrük baxışı zamanı 28 ədəd daş blokların hər birinin daxilində 1 ədəd olmaqla şəffaf rəngli polietilen torbalarda qablaşdırılan, ümumi çəkisi 45 kq 446 qram narkotik vasitə-heroin aşkar edilib.

Bundan sonra həmin avtomobildəki digər daş bloklarda da narkotik vasitələrin olub-olmamasını təkrar yoxlamaq məqsədilə yük avtomobili idxal xəttinə yönləndirilib. Yoxlama yerinə çatarkən sürücü Azızıkoshkı Majıd Hassan qəfildən idarə etdiyi nəqliyyat vasitəsinin surətini artıraraq İran istiqamətinə hərəkət etməyə başlayıb. Gömrük əməkdaşları bunun qarşısını almağa səy göstərsələr də, sürücü yük avtomobili ilə İran istiqamətindəki çıxış xəttində olan “şlaqbaumu” sındıraraq Azərbaycan Respublikasının ərazisini tərk edib. Qanunsuz şəkildə, müvafiq sənədlər olmadan dövlət sərhəddini keçən sürücü İran İslam Respublikasının Biləsuvar gömrük postunun nəzarət zonasının girişində yük avtomobilini darvazanın kandarına çırparaq dayanıb və nəqliyyat vasitəsindən düşüb qaçaraq İran ərazisinə daxil olub.

Bundan sonra nəzarətdə olan İran islam Respublikasının digər vətəndaşı İmani Rouhollah Alıakbarın idarə etdiyi “VOLVO” markalı 26A951-10/26A952-10 dövlət nömrə nişanlı yük avtomobilinin qoşqusunda olan 15 paletdəki 960 ədəd daş bloklar “HEİMANN” markalı rentgen qurğusundan keçirilərək yoxlanılıb. Yoxlama zamanı 161 ədəd standart ölçülü, düzbucaqlı formalı daş blokların hər birinin içərisində 1 ədəd olmaqla şəffaf rəngli polietilen torbalarda qablaşdırılmaları ilə birlikdə, ümumi çəkisi 261 kq 264 qram təşkil edən narkotik vasitə - heroin aşkar edilib.

Beləliklə, iki yük avtomobilindən aşkar edilən narkotik vasitə-heroinin ümumi çəkisi 306 kq 710 qramdır. Qeyd edək ki, aşkar olunan 306 kq 710 qram heroinin “qara bazar”da dəyəri 21 milyon 500 min manat təşkil edir.

Faktla bağlı araşdırma aparılır.

**Musavat.com**

YENİ MÜSAVAT
N 62 (7232) 19 mart 2019

# Quraqlığın aqrar istehsala yaratdığı problemlər

## Pərviz Hacıyev: "Strateji hədəfimiz məhsuldarlığı artırmaqdır"

**Son illər Azərbaycanın da daxil olduğu regionun iqlim şəraitində kəskin dəyişikliklər müşahidə olunmaqdadır: havalar daha çox isti və quraq keçir. Artıq ikinci qışdır ki, ölkə ərazisində yağıntıların kəskin azalması, əkinçilik üçün əlverişsiz vaxtlarda güclü yağıntıların düşməsi kimi xarakterik olmayan hava şəraiti qeydə alınır.**



Bu il qışın həddsiz mülayim keçməsi, yağntıların paylanmasındakı kəskin qeyri-bərabərliyin davam edəcəyi, yaz və yay fəslində də havaların quraq keçəcəyindən xəbər verir. Belə şəraitdə kənd təsərrüfatı istehsalçılarının düzgün istiqamətləndirilməsi, əkinçiliklə məşğul olanların fəaliyyətində bir sıra dəyişikliklərin edilməsi zərurəti yaranır.

Qeyd edək ki, Azərbaycan ərazisinin yalnız 54,9 faizi kənd təsərrüfatına yararlıdır. Bu ərazilərin də əksəriyyəti - 2 milyon 915,4 min hektarı daimi bitkilər (bağlar, üzümlüklər, tingliklər, çay plantasiyaları) otlaqlar və biçənəklər altında olan torpaqlardır. Cəmi 1,8 milyon hektar sahə şum altında istifadə olunur.

Meliorasiya və Su Təsərrüfatı ASC-dən aldığımız məlumata görə, suvarılan torpaqlar ölkənin kənd təsərrüfatına yararlı torpaq sahələrinin üçdə birini (1432,7 min hektar) təşkil etsə də, ölkədə istehsal olunan kənd təsərrüfatı məhsullarının 90-95 faizi bu torpaqlardan götürülür. Suvarılan torpaqların təxminən üçdə birindən çoxu (565 min hektarı) mexaniki üsulla, o cümlədən 349,4 min hektar elektrikləşdirilmiş, 68,2 min hektar dizel nasos stansiyaları ilə, 147,7 min hektarı isə subartezian quyuları vasitəsilə suvarılır.

Torpaq-iqlim şəraiti Azərbaycanda suvarılan torpaq sahəsini 3,0-3,5 milyon hektara qədər artırmağa imkan verir. Lakin su ehtiyatlarının çatışmazlığı bunun həyata keçirilməsinə yol vermir. Belə ki, arid zonada yerləşən Azərbaycanın su ehtiyatları olduqca məhduddur. Yerüstü su ehtiyatları 32,2 mlrd.$m^2$ təşkil edir və quraqlıq illərdə 22,6 mlrd. $m^2$-ə qədər azalır. Yeraltı suların miqdarı isə 5,2 mlrd. $m^2$-dir.

Respublikada orta illik su çatışmazlığı 4,5-5 mlrd. $m^2$ arasında dəyişir. Yerüstü su ehtiyatlarının 70 faizi ölkə hüdudlarından kənarda formalaşır. Hazırda respublikada orta illik su çatışmazlığı 3,7 $km^2$, az sulu illərdə isə 4,75 $km^2$ təşkil edir. Çaylardan ekoloji, energetika və digər məqsədlər üçün məcburi su buraxmalarını nəzərə alsaq, su çatışmazlığının miqdarı təsəvvür edilməz qiymətə malik olacaq.

Son illər respublikamızda bütün su mənbələrində orta hesabla 10-14 mlrd.$m^2$ su götürülür ki, onun 60-70 faizi kənd təsərrüfatının, 20-25 faizi sənayenin, qalan hissəsi isə təsərrüfat və içməli su tələbatının ödənilməsinə sərf edilir.

Qlobal iqlim dəyişilmələri ilə əlaqədar dünyada, o cümlədən Azərbaycanda müşahidə olunan uzun sürən quraqlıqlar, son 2-3 ildə çaylarda baş verən sel və daşqınlar ölkə iqtisadiyyatına və əhalisinə xeyli ziyan vurub. Bundan əlavə, ümumi su tutumu 640 mln. m2 olan su anbarları təcavüzkar Ermənistan tərəfindən Azərbaycanın işğal edilmiş 20 faiz ərazilərində qaldığı üçün onların sularından uzun illərdən bəri istifadə edilməsinin mümkün olmaması su qıtlığı sahəsində respublikada yaranan gərginliyi daha da dərinləşdirir.

Ölkə rəhbərliyi və ASC tərəfindən suvarılan torpaqların sahəsinin artırılması üçün bir sıra tədbirlər həyata keçirilir. Xüsusilə son illərdə rayonlarda yaradılan böyük aqroparkların su təchizatı sistemi qurulur, müxtəlif kanalların, artezian quyularının hesabına yeni sahələrin suvarmaya cəlb olunması prosesi gedir.

Rəsmi statistikaya görə, 2013-2017-ci illərdə ölkənin 40 şəhər və rayonu üzrə əhalisi 1,4 milyon nəfərə yaxın olan 611 yaşayış məntəqəsində əkin sahələrinin, əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təmin olunması və əhalinin içməli suya tələbatının ödənilməsi üçün 1107 subartezian quyusu qazılıb. Ötən il isə əhalisi 597 min nəfərə yaxın olan 38 şəhər və rayonun 248 yaşayış məntəqəsində 8740 hektar əkin sahəsinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, yeni suvarılacaq torpaqların suvarma suyuna, habelə əhalinin içməli suya olan tələbatının ödənilməsi üçün 300 ədəd subartezian quyusunun layihələndirilməsini və qazılmasını təmin etmək məqsədilə dövlət büdcəsindən Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə 21 milyon manat ayrılıb. ASC 300 quyudan əlavə, suvarma su mənbəyi işğal zonasında qalmış Ağdam rayonunda əlavə olaraq 35 subartezian quyusu istismara verib. Bu ilin fevralında isə dövlət başçısının sərəncamı ilə əhalisi 736 min nəfərə yaxın olan 41 şəhər və rayonun 254 yaşayış məntəqəsində əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, yeni suvarılacaq torpaqların suvarma suyuna, habelə əhalinin içməli suya tələbatının ödənilməsi üçün daha 300 subartezian quyusunun layihələndirilməsini və qazılmasını təmin etmək məqsədilə ASC-yə 21 milyon manat ayrılıb.

Onu da bildirək ki, quraqlığa baxmayaraq, Azərbaycanda son illərdə çox su sərfiyyatı tələb edən bir sıra bitkilərin əkinləri genişləndirilir. Şəkər çuğunduru, çəltik, tütün, pambıq belə bitkilərdəndir. Suvarma imkanlarının genişləndirilməsi üçün dövlətin həyata keçirdiyi tədbirlərə rəğmən, quraqlıq olduğu təqdirdə belə əkinlərdə məhsuldarlıq da kəskin azalır, istehsalçının əməyi zay olur.

**Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Tədqiqatlar Mərkəzinin rəhbəri Pərviz Hacıyevin "Yeni Müsavat"a bildirdiyinə görə, son illərdə bütün dünyada qlobal iqlim dəyişikliyi ilə əlaqədar xarakterik olmayan hava şəraiti müşahidə olunmaqdadır:** "Bütün dünyada yağıntıların qeyri-bərabər paylanması baş verir. Məsələn, bir əraziyə uzun müddət yağıntı düşməyib. Yaxud başqa bir ərazidə bir neçə ayın yağıntısı bir həftədə düşüb. Məsələn, ötən il məhz iqlim problemləri üzündən dünyada buğda istehsalında azalma və qiymət artımı baş verdi. Haradasa 30 faiz, bəzi yerlərdə 40 faizədək qiymət artdı. Azərbaycanda da azalma oldu. Baxmayaraq ki, ölkə üzrə orta məhsuldarlıq artdı, amma bəzi sahələrdə ümumiyyətlə, məhsul əldə olunmamışdı. Belə dəyişiklik fonunda inkişaf etmiş ölkələrdə hibrid toxumlardan yetişdirilməsi üzərində işləyirlər. Belə toxumlar həm quraqlığa, həm də müxtəlif xəstəliklərə qarşı davamlıdır. Söhbət GMO-dan deyil, hibrid toxumlardan gedir, Azərbaycanda bir çox hallarda bunları qarışdırır. Azərbaycanda da bu toxumlardan istifadə olunur. Eyni zamanda ölkənin özündə yerli şəraitə uyğun belə toxumların yetişdirilməsinə başlanılır, alimlərimiz bunun üzərində işləyirlər".

**Mərkəz rəhbəri qeyd edir ki, qışın mülayim keçməsi başqa bir problem də yaradır:** "Mülayim hava ağacların tez oyanmasına və çiçəklənməsinə səbəb olub. İndiki güclü küləklər çiçəklərin vaxtsız tökülməsinə gətirib çıxarır, bu isə məhsuldarlığı kəskin azaldır. Eyni zamanda taxıl əkinləri də mülayim havaya görə vaxtından əvvəl vegetasiya dövrünə qədəm qoyub. Qışın yetərincə soyuq keçməməsi torpağın üst qatında məskunlaşan zərərvericilərin məhv olmamasına gətirib çıxarıb. Aprel ayında bitki ciddi inkişaf mərhələsinə qədəm qoyanda bu zərərvericilər ona böyük zərər vururlar. Hazırda bu problem bütün region ölkələrində müşahidə olunur. Zərərvericilərə, xüsusilə gəmiricilərə qarşı mübarizə aparılması lazım gəlir ki, bu da əlavə vəsait tələb edir. Həm dərman preparatlarının alınması, həm də sahələri metr-metr gəzərək dərmanlama işlərinin aparılması baxımından. Hazırda bu istiqamətdə böyük işlər görülür, güman edirik ki, ciddi itkilərin qarşısını ala biləcəyik".

**P.Hazıyevin sözlərinə görə, KTN tərəfindən bütün bitkilər üzrə məhsuldarlığın artırılması istiqamətində mühüm tədbirlər həyata keçirilir:** "Strateji hədəf məhsuldarlığın artırılmasına nail olunmasıdır. Hər hansı bölgədə quraqlıq davamlıdırsa, orada bol su tələb edən bitkilərin əkininin azaldılmasına çalışırıq. Çünki yay aylarında bu bitkilərə yetərincə su verilməsə, məhsuldarlıq çox aşağı olacaq. Bu hədəfə uyğun olaraq cari ildə pambıq əkininin sahəsini azaltmışıq, bol məhsulun əldə olunması real olan 104 min hektarda pambıq əkilib. Düşünürük ki, 130 min hektar əkib ortalama olaraq 17 sentner məhsuldarlıq əldə etməkdənsə, 100 min hektar əkib 30 sentner almaq daha yaxşıdır".

**KTN suvarma imkanlarının genişləndirilməsi istiqamətində Meliorasiya və Su Təsərrüfatı ASC ilə əməkdaşlıq edir:** "İndiyədək 540 min hektar əlavə sahə su ilə təmin olunmağa başlayıb. Biz hansı sahələrin suvarmaya cəlb olunması imkanlarının olduğunu müəyyənləşdirib, meliorasiya qurumu ilə birgə bu sahədə tədbirlər hazırlayırıq".

❑ **Dünya SAKİT,**
**"Yeni Müsavat"**

# Ən təhlükəsiz “təhlükəli” təyyarələr

## “Boeing”ə etimad azalacaqmı?

**ABŞ-ın Nəqliyyat Nazirliyi “Boeing 737 MAX” təyyarələrindən istifadənin təhlükəsizliyini yoxlamağa başlayıb.**

“The Wall Street Journal”ın yazdığına görə, qurum mülki aviasiya orqanlarının təyyarələrə uçuş icazəsi verilməsi zamanı yol verilə biləcək mümkün pozuntularını araşdırmaq niyyətindədir (Report).

Martın 10-da Efiopiyada qəzaya uğrayan “Boeing 737 MAX8" təyyarəsi ABŞ-ın aviasiya nəhəngini yeni layihəsinin təqdimatını mətbuata qapalı keçirməsinə səbəb olub. Martın 13-də şirkət dünyanın ən uzun təyyarəsi olan ”Boeing 777-9X" laynerini təqdim edib. Şirkətin Vaşinqton ştatının Everett şəhərindəki müəssisəsində baş tutan təqdimatdan aydın olur ki, uzaq məsafəli uçuşlar üçün nəzərdə tutulan yeni modelin hazırlanmasına 2010-cu ildən başlanıb. Təyyarə GE9X adlı ən müasir mühərriklə, dünyada ən böyük güc qurğuları və kompozisiyalı qanadlarla təchiz olunub. Modelin müxtəlif versiyalarının uzunluğu 69,8 və 76,7 metr, qanadlarının açılış məsafəsi 71,8 metr olacaq. Maksimal ucuz ağırlığı 351,5 ton olan “Boeing 777-9X” 16,1 min kilometrlik uçuş imkanına malikdir. Təyyarə versiyalarından asılı olaraq 349 və 414 sərnişin daşıyacaq.

“Boeing” yeni modelin təqdimatını böyük bir mərasimlə qeyd etməyə hazırlaşırdı, lakin Efiopiyadakı qəza planların dəyişməsinə səbəb oldu.

Yeri gəlmişkən, qəzaya uğrayan təyyarənin qara qutularında qeydə alınan danışıqlar baş verən hadisə ilə ötən ilin oktyabrında İndoneziyadakı qəza arasında oxşarlıqların olduğunu deməyə əsas verir. Bu barədə martın 17-də Efiopiyanın nəqliyyat naziri Dahmavit Mohes məlumat verib. Onun sözlərinə görə, hər iki reys arasında oxşar nöqtələr var və bu, araşdırmaların nəticələrində mühüm rol oynayacaq. Nazir qeyd edib ki, Efiopiyadakı qəzanın səbəblərinə dair ilkin hesabat 30 gündən sonra açıqlanacaq.

Maraqlıdır ki, bütün dünyada “Boeing 737 MAX 8"lərin istifadəsi müvəqqəti olaraq dayandırılsa da, bu, şirkətin məhsulu olan digər modellərdə uçuşlara ciddi təsir göstərməyib. Bunu analitiklər ”Boeing"in bir əsrlik fəaliyyəti dövründə, xüsusilə də sərnişin aviasiyasının bumu yaşanan 1950-ci illərdən bəri ən çox sayda sərnişin təyyarəsi istehsal edən və ən çox təhlükəsiz uçuşa nail olan şirkətin uğuru ilə izah edirlər.

Məlumat üçün bildirək ki, “Boeing” şirkətinin əsası 1903-cü ildə qoyulub. Maraqlıdır ki, şirkət fəaliyyətə təyyarə istehsalı ilə deyil, digər istehsalçılardan hava maşınlarını kirayə götürməklə başlayıb. Bir neçə ildən sonra konsernin yaradıcıları qərara gəldilər ki, təyyarələri özləri daha yaxşı istehsal edə bilərlər. Onların 1916-cı ildə ABŞ ordusunun sifarişi əsasında hazırladıqları hidrotəyyarə uğurlu alındı. Bundan sonra ordu üçün sifarişlərin həcmi durmadan artdı. Birinci Dünya müharibəsindən sonra hərbi sifarişlər minimuma düşdü. Bu zaman şirkət diqqətini poçt və sərnişin daşımalarına yönəltdi. 1930-cu ildə ilk iritutumlu sərnişin təyyarəsi istehsal olundu. İkinci Dünya müharibəsi zamanı yenidən hərbi sifarişlər artsa da, şirkət sərnişinləri yaddan çıxarmayıb yeni modellər hazırladı. Beləliklə, 50-ci illərdə “Boeing” genişfüzelyajlı (genişkorpuslu) təyyarə istehsalında dünyanın şəriksiz liderinə çevrildi. Hazırda “Boeing” mülki və hərbi təyyarələrin, pilotsuz aparatların və kosmik texnikanın istehsalı ilə məşğul olur.

Təhlükəsizlik məsələsinə gəlincə, dünya statistikasına nəzər saldıqda, “Boeing”lərdə qəza sayının “Airbus”a nisbətən çox olduğu görünür. Lakin bu, heç də istehsalçının pisliyinə dəlalət etmir. Belə ki, təyyarələrin qəzaya qədərki “həyatı” çox mühüm rol oynayır. Məsələ burasındadır ki, “Boeing”li qəzaların əksəriyyəti üçüncü dünya ölkələrində qeydə alınır. O ölkələrdə ki, təyyarə parkını vaxtlı-vaxtında yeniləmək, mövcud təyyarələrə normalara uyğun texniki qulluq göstərmək imkanı olmur. Aydın məsələdir ki, hər bir texnikanın istismar müddəti çoxaldıqca daha çox baxım istəyir. Bu baxım aparılmadıqda isə qəza ehtimalı da artır.



Məsələn, statistikaya görə, 737 seriyasından olan “Boeing” modellərində baş verən qəzalarda ölənlərin sayı Efiopiyadakı hadisə ilə 5386 nəfərə çatıb. AirSafe portalının hesablamasına əsasən bu təyyarələrdə hər milyon uçuşa 0,28 qəza düşür ki, bu da Airbus A318/319/320/321 ailəsinin ümumi göstəricisindən - hər milyon uçuşa 0,11 qəzadan daha yüksək göstəricidir. Lakin bu göstərici 1960-cı illərdən bəri istismarda olan 737-lərin bütün tarixini əhatə edir. İndiyədək məhv olmuş 200 737-nin 8-i hərbi əməliyyatlar və ya terror aktları nəticəsində partladılıb ki, bu zaman 596 nəfər həyatını itirib.

Ümumiyyətlə, “Boeing 737"lərlə baş vermiş qəzaların yalnız üçdə biri təyyarədəki texniki nasazlıqlar üzündən baş verib. Qalan bütün qəzalarda - pilot səhvi, əlverişsiz hava şəraiti və digər amillər rol oynayıb. Bu təyyarələr dünyanın ilk reaktiv sərnişin təyyarələri ”ailəsidir". İndiyədək onların 4 nəsli dəyişib. “Boeing 737" həm də sərnişin aviasiyası tarixində ən çox istehsal olunan təyyarədir - 10,5 min ədəddən çox. Müasir dünyada hər gün eyni vaxtda havada 1000-dək 737 uçur.

Aviasiya tarixinin ən təhlükəsiz sərnişin təyyarələri də məhz “Boeing” modelləridir. Dünyada bu sahədə birinci yeri “Boeing 777" tutur - 19 milyon saatlıq uçuş müddətində 1000-dək təyyarədə bir nəfər belə qəzada ölməyib. Təhlükəsiz sərnişin təyyarələrinin ilk onluğunda ”Airbus"un cəmi 2 modeli var: Airbus A340 və Airbus A330. Qalan bütün yerlər “Boeing”ə məxsusdur.

“Boeing”lə bağlı ən çox tələfata səbəb olan 3 mühüm hadisə dünya tarixində qeydə alınıb. Bunlardan biri 1977-ci ildə Kanar adalarında iki “Boeing 747"nin havada toqquşmasıdır - təyyarələrdən birinin pilotu yerli hava limanının dispetçerinin dilini yaxşı başa düşməmişdi. Nəticədə iki təyyarədə olan 578 nəfər həlak olub.

1985-ci ildə isə eyni model təyyarə Yaponiyada dağa çırpılıb - 520 nəfər ölüb. Qəzanın səbəbləri araşdırılıb və məlum olub ki, təyyarə qəza ərəfəsində keyfiyyətsiz təmir edilib.

2001-ci ilin 11 sentyabrında terrorçular tərəfindən ələ keçirilərək “Əkiz qüllələr”ə çırpılan məhz “Boeing 757"lər idi.

**❑ DÜNYA, “Yeni Müsavat”**

# “Nar” nömrə ilə xaricdə “WhatsApp” pulsuzdur




**“Nar” Novruz bayramı ilə əlaqədar xaricə səyahət edəcək abunəçiləri üçün sərfəli rominq paketləri təqdim etməkdədir. Mobil operatorun istifadəçiləri “Nar” rominq ilə internet, “WhatsApp” vasitəsilə pulsuz yazışma və səsli zəng əldə edirlər. Bütün abunəçilərini nəzərə olan “Nar” 4 müxtəlif rominq paketi təqdim edir. “Roaming 9" paketi 500 MB internet, ”Roaming 15" paketi 500 MB internet və 50 dəqiqə səsli zəng, “Roaming 18" paketi 1 GB internet, ”Roaming 28" paketi isə 1 GB internet və 100 dəqiqə səsli zəng xidməti təklif edir. “Roaming 18" və ”Roaming 28" paketlərində “WhatsApp” vasitəsilə yazılı mesajlar pulsuzdur. “Roaming 9", ”Roaming 15" paketlərinin istifadə müddəti 5, “Roaming 18" və ”Roaming 28" paketlərinin istifadə müddəti isə 15 gündür.**

Qeyd edək ki, “Nar”-ın təqdim etdiyi rominq paketlərinin sərfəli olması, istifadəçilərin sayını artırmaqdadır. Son 1 il ərzində “Nar”-ın rominq istifadəçilərinin sayı 174% artıb.

Rominq paketləri haqqında daha ətraflı məlumatı nar.az ttps://www.nar.az/abroad/ saytından və ya 777 nömrəsinə “R” göndərməklə əldə etmək olar.

“Azerfon” şirkəti (“Nar” ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. “Nar” ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. “Nar” ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 7400-dən artıq baza stansiyası ilə 2,2 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.

YENİ MÜSAVAT
N 62 (7232) 19 mart 2019

# Bostançının 800 minini kim yeyib? - reportaj

## Xudatın bu kəndinin kələ-kötür yollarına ayrılan vəsait qəhətə çıxıb; sakinlər deyirlər ki...

**Xudatın mərkəzindən Bostançı kəndinə yol ayrılır. Bizi Bakıya qayıdarkən bu yolla getməyə vadar edən səbəb sakinlərin dəvəti oldu. Onların dediyinə görə, gəlib görmədən Bostançının yol problemini təsvir etmək, yazmaq olmaz.**










Dedikləri kimi də oldu, kəndə girəndə elə bil, Suriyanın hansısa müharibədən çıxmış ərazisinə daxil olmuşuq. Başdan axıradək kələ-kötür, dağılmış Bostançı yollarından istifadə eləməyə dəyməz, ikinci səfərdə mütləq maşın can verməyə başlayacaq. Özü də bu kəndə nə avtobus var, nə marşrut işləyir. Kimin şəxsi maşını varsa, gedib-gəlir. Sakinlər hər gün əziyyət çəksələr də, yuxarılara məsələ başqa cür məruzə edilib.

Əslində Xudatın bir çox kəndi var ki, yolları bərbad gündədir. Soruşacaqsınız ki, onda niyə məhz Bostançıdan reportaj eləmisiniz. Çünki kəndin yollarının təmiri üçün 800 min manat ayrıldığı elan edilib, həzmi-rabedən keçirilib, üstündən su içilib, sonra Bostançı yollarına asfalt çəkildiyi deyilib.

Bu günə qədər kəndin bələdiyyə sədri Nasib Abuzərov, Xudat icra nümayəndəliyi, onların tabe olduğu Xaçmaz Rayon İcra Hakimiyyəti Bostançıya 800 min manata yol çəkildiyi barədə yüksək instansiyalara hesabat veriblər.

Sakinlər deyirlər ki, yerli məmurlar bu saxtakarlıq faktını uzun müddət gizlədə biliblər. Nə yol çəkilib, nə asfalt tökülüb, nə yarım qarış təmir gedib. Bəs həmin 800 min manat hara gedib, bax, onu məmurlar yaxşı bilirlər.

**Kənd camaatı isə bir neçə dəfə soruşub, sonra məktub yazıb, amma onlara cavab verməyiblər. Bizimlə söhbətində narazılıq edən Bostançı camaatı danışır ki, ortada ciddi yeyinti, mənimsəmə faktı var:** "800 min 1 milyon manata yaxındır. Bir kəndə yol çəkmək üçün bəlkə 200 min də bəs edərdi. Amma nə yol var, nə pul. Bakıdan gəlib Xaçmaz icra hakimiyyətindən soruşan da olmayıb ki, Bostançının yolları necə oldu? Axı kim bir kəndlə maraqlanacaq? Bunu icra başçısı Şəmsəddin Xanbabayev və bələdiyyə sədri eləməliydi. Onlar da "gözünə döndüyüm" pulları qəşəng siliblər, deyiblər ki, yol hazırdır. İndi baxın, görün yollarımız nə vəziyyətdədir. Bostançı sakinləri hər gün bu yollarda zülm çəkirlər. Qışda, yağışlı havalarda lap çətin olur. Heç bizə qulaq asan da yoxdur. Ona görə xahiş edirik ki, siz çəkin göstərin, qoy yalanın üstü açılsın".

**Sakinlər bildirirlər ki, kəndin qurtaracağında Xaçmaza təzə yol çıxır:** "O yol yaxşıdır, asfaltdır. Amma Xudat-Bostançı bərbad gündədir. Daş-çınqıl yerdən qopub maşınların şüşələrinə dəyir. Şoferlər ziq-zaq sürürlər, yol boyu salamat yer axtarırlar ki, maşın çuxura düşməsin. Bu 800 min manat Bostançı əhlinə ayrılıb ki, rahat yolları olsun. Amma icra başçısı ilə bələdiyyə sədri elə bilir ki, bu maliyyə onların istirahətinə ayrılıb. Biz görmüşük ki, yolu çəkirlər, pis-yaxşı düzəldirlər, ordan babat pul silirlər. Bunlarsa heç qara qəpik də xərcləməyiblər, yola bir maşın asfalt tökməyiblər, hamısını yoxa çıxarıblar. Xudatdan Bostançıya qədər azı 15-20 kilometr var. Bir qarışı da təzələnməyib".

Kənddə ən çox əziyyət çəkən isə məktəblilər olur. Bərbad yollar ucbatından palçığın, daş-qəmbərin əlindən güclə gedib-gəlirlər.

**Bostançı kəndinin sakinləri "Yeni Müsavat" vasitəsilə Prezident Administrasiyasına, Azərbaycan Dövlət Avtomobil Yolları Agentliyinə müraciət edərək yerli məmurların əməlləri ilə bağlı araşdırma aparılmasını, problemin həll olunmasını xahiş edirlər:** "Bizim yerli icra başçısına, bələdiyyə sədrinə, yol idarəsinə heç bir inamımız qalmayıb. Onlar düzgün işləsəydilər, ortaya bu boyda həngamə çıxmazdı. Ona görə prezidentdən, ölkə rəhbərliyindən kömək gözləyirik. Biz sakinlərin yol problemindən başqa şikayəti yoxdur. Qazımız, işığımız var, uşaqlarımız oxuyur, yollarımız isə acınacaqlı vəziyyətdədir. Xahiş edirik ki, buna bir əncam qılınsın, 800 min manatın aqibətinə aydınlıq gətirilsin".

❑ **Emil SALAMOĞLU,**
**"Yeni Müsavat"**
**Xudat - Bostançı- Bakı**

# Bayılın köçürülməsi bayramdan sonraya qaldı

## Məcburi köçkünlərə onlarla yerli sakinlər arasında köçürülmə zamanı ayrı-seçkilik olmayacağı vədi verilib...

**Bayılın sürüşmə zonasında yaşayan sakinlərin köçürülməsi məsələsi bu ay da həll olunmadı. Onlara nə köçürüləcəkləri gün, nə də ödəniləcək kompensasiyanın miqdarı ilə bağlı heç bir məlumat verilmir. Lakin bildirilib ki, bayrama qədər hər hansı yenilik gözlənilmir.**



Məlumat üçün qeyd edək ki, ərazidə yaşayan 27 məcburi köçkün ailəsinə Səbayel Rayon İcra Hakimiyyətindən bildirilmişdi ki, onlara Qaçqın və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi ev verəcək. Bu isə ailələrin narazılığına səbəb olmuşdu. Köçkün ailələri bildirirdilər ki, araşdırma aparıblar və öyrəniblər ki, onlara veriləcək evlər müvəqqətidir və bu evləri kimsəyə satmaq mümkün deyil. Eyni zamanda həmin evlər Bakının mərkəzindən xeyli uzaqdır.

Bütün bunlara etiraz olaraq məcburi köçkün ailələri Prezident Administrasiyasının qarşısına toplandılar. Orada problemləri dinlənilən məcburi köçkün ailələrinə Qaçqın və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə getmələri tövsiyə olundu. Məcburi köçkün ailələrini qəbul edən "Qaçqınkom" sədri Rövşən Rzayev bildirib ki, onların hüquqlarının tapdalanmasına imkan verməyəcək.

**Sakinlər son yeniliklərlə bağlı "Yeni Müsavat"a bildiriblər ki, onlar Bakı Şəhər İcra Hakimiyyətinə də müraciət ediblər. Sakin Elməddin Muradlı aşağıdakıları bildirib:** "Ötən həftə bizə cavab gəldi. Səbayel Rayon İcra Hakimiyyəti başçısının müavini Vüqar Şıxəmmədov sakinləri qəbul edib bildirdi ki, həqiqətən də məktubu alıblar. Vüqar müəllim də öz dili ilə dedi ki, yerli sakinlərlə məcburi köçkünlər arasında köçürülmə prosesində heç bir ayrı-seçkilik olmayacaq. O söyləyib ki, hamı bir formada kompensasiya ilə təmin olunacaq. Sakinlərə kirayə pulunun ödənişi mart ayına qədər edilib. Növbəti ayın kirayə pulu ilə bağlı hələ ki xəbər yoxdur. Bu ayın axırından etibarən guya köçürülmə prosesi başlamalı idi. Ona görə də kirayə pullarını mart ayına qədər vermişdilər. Ancaq hələ ki köçürülmə ilə bağlı heç bir aktiv fəaliyyət müşahidə olunmur. Yəqin ki, bayramdan sonra köçürülmə prosesi başlayacaq. Hər halda, mənzil istismar sahəsindən də bildirdilər ki, ola bilər, apreldə də kirayə pulu verilsin. Bununla bağlı hökumət qərar verməlidir. Hazırda köçürülmə prosesi ilə bağlı Nazirlər Kabinetinin qərarı gözlənilir. Qərar olandan sonra sakinlər rahatlaya bilərlər. Çünki Səbayel rayon icra başçısının müavini sakinlərə rəsmi qaydada deyib ki, qalmaqallı məsələyə son qoyulub və məcburi köçkünlərin də evlərinin dəyəri hesablanacaq, qiymət veriləcək. Eləcə də Bakı Şəhər İcra Hakimiyyətindən və Prezident Administrasiyasından gələn cavabda da eyni məsələ vurğulanmışdı. Sadəcə olaraq, ötən gün televiziyaların birində fərqli səpkidə süjet yayımlanıb. Həmin süjetdə bildirilib ki, Bayıl yamacında yaşayan məcburi köçkünlərə fərqli yerdə ev veriləcək. Ancaq "Qaçqınkom" sədri Rövşən Rzayev də açıqlama vermişdi ki, bizim hələ zirzəmilərdə daha ağır şəraitdə yaşayan məcburi köçkün ailələrimiz var ki, onları belə tamamilə evlə təmin etmək imkanında deyilik. O da bildirmişdi ki, Bayıl yamacında yaşayan məcburi köçkün ailələri ilə bağlı rayon icra hakimiyyəti addım atmalıdır. Yəqin ki, Bakı Şəhər İcra Hakimiyyəti və Nazirlər Kabineti bunu nəzərə alarlar ki, "Qaçqınkom"u da belə yükləmək doğru deyil. Çünki hazırda çox pis şəraitdə yaşayan xeyli sayda məcburi köçkün ailələri var".

**E. Muradlının sözlərinə görə, dövlətdən kirayə pulu alanlar hazırda Bayıldakı evlərində yaşamırlar:** "Bəzi ailələrin kirayə pulunu kəsdilər. Çünki yanvardan fevralın əvvəlinə qədər kirayə pulu verilmədi. Ona görə də bir çox ailələr evlərinə qayıtdılar. Onlar odun sobası yandıraraq birtəhər qışı keçirdilər. Evlərinə qayıtdıqları üçün bu ailələrin kirayə pulu kəsildi. İndi də həmin ailələr öz evlərində yaşamağa davam edirlər. Kirayə pulu ödənilmədiyi üçün ailələr öz hesablarına kənarda kirayə yaşamağa çətinlik çəkirlər. Ümumilikdə köçürülmə ilə bağlı canlanma müşahidə edilmir. Əslində mart ayında köçürülmə ilə bağlı şayiə yaranmışdı. Belədir ki, sakinlərə vəzifəsi aşağı olan məmurlar köçürülmənin yaxın zamanda olacağını bildirsələr də, yüksək rənglı məmurlar danışanda bildirirlər ki, məsələ ilə bağlı Nazirlər Kabinetinin qərarı olmalıdır. Həmin qərar isə hələ ki verilməyib. Vəziyyətimiz bu cürdür".

Onu da əlavə edək ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyindən verilən məlumata görə, sürüşmənin baş verdiyi ərazidə uzun müddətdir ki, sabitlik müşahidə olunur. Sakinlər isə bildirirlər ki, son aylar ərzində evlərində hansısa çat müşahidə etməyiblər.

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT

Son səhifə

N 62 (7232) 19 mart 2019



# İt 1 həftədir ölmüş sahibini xəstəxana qarşısında gözləyir

**Argentinanın San-Salvador-de-Jujuy şəhərində 6 yaşlı it bir həftə boyunca xəstəxananın qabağında oturub, ölmüş sahibinin yolunu gözləyib. Bu barədə "Daily Mail" xəbər verib. Toto ləqəbli itin sahibi kritik durumda xəstəxanaya düşüb və ev heyvanını "sağollaşmaq" üçün palataya gətirmələrini xahiş edib. Amma argentinalının ölümündən sonra qohumları heyvanı evə aparmağı unudub. Nəticədə it xəstəxananın qabağında 1 həftə boyunca sahibini gözləyib.**

"Hesab edirəm ki, o, sahibinin qayıdacağını və onu evə aparacağını düşünür. Buna inanır!" Bunu yerli sakinlərdən biri bildirib. Onlar Totoya yeni sahibini tapmasında yardım etməyə çalışırlar. Heyvanların müdafiəsi cəmiyyətinin üzvü Fatima Rodriqes isə bildirib ki, itin gələcək ailəsi çəpərlənmiş yaşayış sahəsinə malik olmalıdır. Çünki it yenidən xəstəxanaya qayıtmaq istəyə bilər. Toto bir neçə dəfə veterinar klinikada müalicə keçib və indi də pəncəsində əməliyyat keçirilməsinə ehtiyac duyur.

Yanvar ayında isə Rıjik ləqəbli pişiyin yanan evin yanında 2 ildir ki, sahibini gözləməsi barədə xəbər yayılmışdı.

# Əl-ələ tutsanız ağrınız azalacaq

**Amerikada həyata keçirilən bir araşdırma cütlüklərin əl-ələ tutaraq bir-birilərinin fiziki ağrılarını azalda bildiyini ortaya qoyub. Araşdırmaya görə, sevdiyimiz insanın əlini tutmaq, dəriyə dəyən isti bir metal parçasının verəcəyi ağrını azalda biləcək qədər təsirlidir. Bu durumun empatidən qaynaqlandığını düşünən elm adamlar ər-arvadın bir-birilərinə duyduqları empatini toxunaraq qarşı tərəfə hiss etdirə bildiklərini və beyin dalğalarının eyni diapazonda dalğada "rəqs etməyə başladığını" deyir. Toxunma ilə keçən empati duyğusu acı hiss edən insanın stressini dayandırır və beyində ağrını azaldan kimyəvi reaksiyalara səbəb olur.**



Alimlər müəyyənləşdirib ki, anlaşma hissi ağrını azaldan kimyəvi maddələr ifraz edir. Əl-ələ tutan cütlüklərin ürək döyüntülərinin və nəfəs almalarının bir müddət sonra sinxronizasiya olunduğu üzə çıxıb.

Birlikdə olan insanların psixoloji və fiziki olaraq bir-birilərini aynaladığı durumlara, gündəlik həyatda da tez-tez rast gəlmək mümkündür. Birgə gəzəndə sinxronizasiya olunmuş addım atmaq, ya da qarşımızdakı insanın duruş şəklini təqlid etmək nümunələrdən, sadəcə, bir neçəsidir.

Həkim Goldstein deyib ki, ağrı cütlüklər arasındakı sinxronu pozur, amma toxunmaq bunu geri gətirir. Bunun xroniki ağrılarda təsirli olub-olmadığı isə bilinmir.

# Qadın anasının qəbri yanında yıxıldı, qəbiristanlıqdan 5 milyon dollar tələb etdi



**ABŞ-ın Nyu-York ştatındakı Lonq-Aylend adasının sakini yerli qəbiristanlığı məhkəməyə verib. Buna səbəb onun valideynlərinin qəbirlərinin dağıdılması olub. Bu barədə "New York Post" nəşri xəbər verib. Coan Kallen iddia edir ki, 19 dekabr 2016-cı ildə valideynlərinin qəbrini ziyarət edərkən, travmalı təcrübə yaşayıb. İşin materiallarına əsasən, qadın valideynlərinin qəbrini ziyarət edərkən, torpaq ayağının altından sürüşüb. Kallen yıxılıb və başı qəbir daşına dəyərək yaralanıb. Qorxudan və qəfil ağrıdan qadın geriyə doğru gedib və çuxura düşüb. Kallen köməyə çağırsa da, heç kim onun səsini eşitməyib. Çünki qəbiristanlıqda heç kim olmayıb.**

Qadının vəkili Cozef Perrini isə bildirib ki, valideynlərinin qəbrinə düşmək, orada başını yaralamaq olduqca ağrılı bir hadisədir. O bildirib ki, bu hadisəyə görə 5 milyon dollarlıq kompensasiya tələb edir. Kallen bildirib ki, bu hadisədən sonra gecə kabusları onu rahat buraxmır və bundan belə valideynlərinin qəbrini ziyarət etməyi əsla düşünmür. Vəkil hesab edir ki, qonşu qəbri qazanlar orada boşluq qoyublar və bu da Kallenin yıxılmasına səbəb olub: "Bu, olduqca dəhşətlidir və heç kimlə bağlı baş verməməlidir. Biz əmin olmaq istəyirik ki, qəbiristanlıq rəhbərliyi və onun işçiləri bu situasiyadan nəticə çıxaracaqlar. Biz əmin olmaq istəyirik ki, bir daha heç kim qəbiristanlıqda bu cür zədə almayacaq".






**QOÇ** - Qarşınızda elə bir gün durub ki, Göy qübbəsi addımbaşı sizi sevindirə bilər. Hər an möcüzə gözləyin, amma özünüz də boş oturmayın. Bu təqvimdə ailə üzvlərinizə qayğınızı əsirgəməyin.



**BUĞA** - Nə qədər səmimi olsanız, hörmətiniz də bir o qədər artacaq. İstənilən münaqişədə tərəfsiz mövqe tutun ki, düşmənləriniz artmasın. Günün ikinci yarısında büdcəniz ağırlaşa bilər. Səfərə çıxmayın.



**ƏKİZLƏR** - Münasibətləri dərinləşdirmək üçün fürsətdir. Ürəyinizə yaxın bildiyiniz hər kəsə baş çəkməyə, heç olmasa zəng etməyə çalışın. Bugünkü addımlarınızdan asılı olaraq sizə qarşı münasibət müsbətə doğru dəyişə bilər.



**XƏRÇƏNG** - Xoş təsadüflərlə zəngin bir gün yaşayacaqsınız, hətta ola bilsin ki, çoxdan görmədiyiniz insanlarla da rastlaşasınız. Saat 15-18 aralığında isə maraqlı təkliflər alacağınız gözlənilir.



**ŞİR** - Pulsuzluğu özünüzə dərd hesab etməyin. Əsas odur ki, tənha qalmayasınız. Bu, bürcünüz üçün ən dözülməzidir. Yaxşısı budur, gücünüzü yarımçıq qalmış işlərin həllinə yönəldəsiniz.



**QIZ** - Bahar nəfəsinin duyulduğu bu ərəfədə mənəvi rahatlıq tapmaq sizin üçün o qədər də çətin olmayacaq. Üstəlik, ətrafınızda olan insanların sizə münasibətində müsbət amillər, hətta sürprizlər də mümkündür.



**TƏRƏZİ** - Paralel olaraq bir neçə işlə məşğul olmaq, həlledici məsələlərdə qətiyyət göstərmək bu gün üzərinizə düşən başlıca vəzifədir. Bir sözlə, bu gün istirahət və ya passiv olmaq barədə düşünməməlisiniz.



**ƏQRƏB** - İxtiyarınızda olan bu gündə pul məsələləri ilə bağlı hər hansı mübahisəyə getməyə dəyməz. Yaxşısı budur, səbrli olub uğurlu məqamınızı gözləyəsiniz. Problemlərdə vasitəcilərdən istifadə edin.



**OXATAN** - Maraqlı hadisələrlə rastlaşacağınız gözlənilir. Hətta könülaçan məclislərdə iştirak edə bilərsiniz. Yeni iş üslubuna keçmək barədə isə düşünməyin. Öz səhvlərinizə özünüz cavabdeh olmalısınız.



**OĞLAQ** - Göy qubbəsi yavaş-yavaş həyatın nəbzini tutduğunuzu proqnozlaşdırır. Məhz bu gündən etibarən daxili sarsıntılarınız da səngiyəcək. Odur ki, özünüzdə güc tapıb hərəkətə keçin.



**SUTÖKƏN** - Bu maraq dolu təqvimi daha çox dostlarınızla birlikdə keçirməyə çalışın. Başınıza gələn hər bir ideyanın böyük perspektivinə inanın. Gün ərzində maddi irəliləyişləriniz də gözlənilir.



**BALIQLAR** - Qarşınızda neytral bir gün durub. Bu səbəbdən qeyri-adi nəsə etməyə qalxmayın. Sənədləşdirmə məsələlərində diqqətli olun. Bu gün nəqliyyatla əlaqəli gərginlik olsa da, pul barədə uğurludur.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Balıqçı kişi yoldaşına göyərçinlə məktub yollayır

**Türkiyənin Muğla şəhərində yaşayan Süleyman Okaymirza balıq tutmağa getdiyi yerlərdə telefonu işləmədiyi üçün qeyri-adi üsullara baş vurur. 36 yaşlı kişi həyat yoldaşına göyərçin vasitəsilə məktub yollayır. 12 yaşından bəri göyərçin saxlayan Süleymanın 30-a yaxın quşu var. Onları buğda və darı ilə bəsləyir. Poçtalyon göyərçinlərin təxminən 20 il yaşadıqlarını deyən Süleyman bu quşların yem verməsinə, yuvaya girmə formasına görə öz sahiblərini tanıdığını bildirir.**

Onun hobbilərindən biri göyərçin saxlamaqdırsa, digəri də balıq tutmaqdır. Balıqda olanda telefon siqnalları tutmadığı üçün ona görə narahat olan həyat yoldaşına göyərçinlə məktub göndərir. Həyat yoldaşı Hülya Okaymirza isə deyib ki, həyat yoldaşı evdə olmayanda evin damına göyərçinlər qonursa, bilir ki, ona məktub yollayıb: "Mən də açıb içini oxuyur, sonra da eyni göyərçinin ayağına cavab mesajı olan kağızı birləşdirib geri yollayıram".

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.755